

**Baronessa Uddin: “Azərbaycan Qafqaz və Xəzər regionunda Böyük Britaniyanın etibarlı tərəfdaşıdır”**

9

# Birinci vitse-prezident

## Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Torpaq çərşənbəsi münasibətilə paylaşım edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Torpaq çərşənbəsi münasibətilə paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda...






3

Səs
№ 048 (6489) 16 mart 2022-ci il. Qiyməti 60 qəpik

# İlham Əliyevin

## Türkiyə səfəri - reallıqlar və perspektivlər nə vəd edir?



Həm Ankara, həm də Bakı koordinasiyalı şəkildə davamlı fəaliyyətlərini daha da gücləndirirlər

5

## Fəxrəddin Altun:

### “Türkiyə İslamofobiya ilə mübarizədə aparıcı rol oynayır”



“Avropanın müharibəyə görə ölkəsini tərk etmək məcburiyyətində qalan ukraynalılara qapılarını açdığı halda, suriyalılara, əfqanlara və ya Afrikadan olan qaçqınlara qarşı ayrı-seçkilik göstərməsi ziddiyyət olaraq qarşımızda dayanır. Bu ikili standartın əsas motivasiyasının islamafobiya və irqçilik olduğunu təəssüf hissi ilə müşahidə edirik”. SİA xəbər verir ki, bu sözləri Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin...

9

# Messi reytinqini itirə-itirə gedir...




16

# Xankəndi!

## və İrəvanda hava həyəcanı siqnalı

13






**Ermənilər Cənubi Qafqaza gəlmə-köçürülüb gətirilmə etnosudur**

11

XIX əsrin 20-30-cu illərindən başlayaraq Cənubi Qafqazın etnik xəritəsində yeni toplum erməni toplumu peyda...



**Novruz bayramını qeyd etmək baharı qarşılamaq deməkdir**

14

Novruz yazın gəlişini simvolizə edən qədim xalq bayramıdır. Novruz bayramını qeyd etmək baharı qarşılamaq...

# "Azərbaycan xarici sərmayə üçün çox cəlbedici ölkədir, açıq ölkədir"

## *Prezident İlham Əliyev Qaradağ Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimində iştirak edib*

**Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının martın 15-də Gülüstan sarayında təməlqoyma mərasimi keçirilib. Prezident İlham Əliyev mərasimdə çıxış edib. Prezident İlham Əliyev öz çıxışında qeyd edib ki, bu çox önəmli bir hadisədir, 230 meqavat gücündə olan bu stansiya həm ölkəmizin enerjiyə artan tələbatını ödəyəcək, eyni zamanda, ixrac imkanlarımızı da genişləndirəcək:**

"Mən çox şadam ki, bu böyük layihənin icraçısı dünyada tanınmış və bu sahədə böyük təcrübəsi olan "Masdar" şirkətidir. Qeyd etdiyim kimi, "Masdar" şirkətinin bu sahədə çox böyük təcrübəsi var, bir çox ölkələrdə uzun illər uğurla fəaliyyət göstərir. Əlbəttə ki, bu şirkətin Azərbaycana sərmayə qoyması çox təqdiredici bir haldır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xarici sərmayə üçün çox cəlbedici ölkədir, açıq ölkədir. Azərbaycanda çox gözəl investisiya iqlimi vardır və eyni zamanda, Azərbaycan xarici tərəfdaşlar qarşısında üzərinə düşən bütün öhdəliklərini yerinə yetirir. Xarici sərmayənin Azərbaycana böyük həcmdə qeyri-neft sektoruna qoyulması bizim əsas prioritetlərimizdən biridir. Çünki uzun illər neft-qaz sahəsinə 10 milyardlarla dollar sərmayə qoyulubdur. Bu, bizə imkan verdi ki, enerji sahəsində istədiyimizə nail olaq. Bu gün Azərbaycan həm xam neft, təbii qaz, neft məhsulları və elektrik enerjisini ixrac edən ölkədir. Bizdə elektrik enerjisinin ixracı nöqteyi-nəzərdən böyük potensial var. Biz dörd qonşu ölkəyə ixracı artıq təmin etmişik və əminəm ki, gələcəkdə digər bazarlara da elektrik enerjisi ilə çıxacağıq. Bunu nəzərə alaraq, hər bir yeni stansiyanın inşa olunması qeyd etdiyim kimi, bizim ixrac imkanlarımızı da artırır."

> "Qeyri-neft sektoruna böyük həcmdə xarici sərmayənin qoyulması bizim əsas prioritetlərimizdən biridir"






Dövlətimizin başçısı qeyd edib ki, bütövlükdə Azərbaycanda mövcud olan sabitlik, iqtisadi inkişaf, qonşu ölkələrlə münasibətlərimiz, nəqliyyat, kommunikasiyalar, elektrik xətləri nöqteyi-nəzərdən qonşu ölkələrlə sıx təmaslar unikal bir vəziyyət yaradır ki, Azərbaycan nəinki xam neft, neft məhsulları və təbii qaz, eyni zamanda, elektrik enerjisinin böyük istehsalçısı və ixracatçısı olacaq: "Xarici bazarlar bizim hüdudlarımızın kənarındadır və Avropadadır. Yenə də deyirəm, böyük tələbat var. Daxili tələbat artmaqdadır. Müstəqillik dövründə Azərbaycan əhalisi 7 milyondan 10 milyona çatıbdır. Yəni, bu, əlbəttə ki, böyük üstünlükdür. Eyni zamanda, sənaye və iqtisadiyyatımız artır. Bu ilin iki ayında ümumi daxili məhsul 6,7 faiz, qeyri-neft sektoru 10,1 faiz, qeyri-neft sənaye istehsalı təxminən 21 faiz artmışdır. Bütün bunlar postpandemiya dövründə əldə edilmiş nailiyyətlərdir və onu göstərir ki, Azərbaycanda aparılan islahatlar, sənayeləşmə siyasəti, biznes mühitinin yaxşılaşdırılması və xarici sərmayənin cəlb edilməsi istiqamətində doğrudan da təqdirəlayiq addımlar atılır. Əlavə etsəm ki, Azərbaycan dünya miqyasında o ölkələrdəndir ki, ölkəmizdə xarici dövlət borcu çox aşağı səviyyədədir, cəmi 7,4 milyard dollardır. Əgər istəsək, biz bu borcu bir gün ərzində sıfırlaya bilərik. Əlbəttə ki, həm beynəlxalq maliyyə qurumları, həm böyük şirkətlər, investorlar Azərbaycana çox böyük maraqla yanaşırlar. Bizim siyasətimiz isə ölkəmizin bundan sonrakı sürətli inkişafını təmin etmək, əlbəttə ki, ilk növbədə, azad edilmiş torpaqları bərpa etmək, - bu, böyük ərazidir, 10 min kvadratkilometrdən çox bir ərazidir, - və eyni zamanda, ölkəmizin dayanıqlı inkişafını təmin etməkdir. Bu, aksiomadır ki, elektrik enerjisi olmadan heç bir ölkə inkişaf edə bilməz. Bu, birinci şərtdir, bu, əsas şərtdir. Xoşbəxtlikdən Azərbaycanda zəngin neft və qaz yataqları vardır və bu yataqların istismarı və işlənilməsi uğurla gedir. Müasir infrastruktur vardır - həm nəqliyyat, həm kommunikasiya, həm də elektrik xətləri ixrac bazarları ilə bizi birləşdirir. Güclü siyasi iradə vardır. Dünyanın demək olar ki, əksər ölkələri ilə sıx tərəfdaşlıq əlaqələri vardır. Bir çox dostlarımız var, onlardan biri də Birləşmiş Ərəb Əmirlikləridir. Mən bütün sərmayə maraqlarını, biznes maraqlarını nəzərə alaraq onu da bildirməliyəm ki, əgər iki ölkə arasında yaxın dostluq əlaqələri olmasaydı, yəqin ki, bu layihəni də biz görməzdik."

Sonra Birləşmiş Ərəb Əmirliklərinin energetika və infrastruktur naziri Suhail Al Mazrouei mərasimdə çıxış edərək bildirib ki, Birləşmiş Ərəb Əmirlikləri Azərbaycanın yaxın dostudur: "Bizi dərin mədəni və iqtisadi əlaqələr, eləcə də təmiz enerjiyə əsaslanan dayanıqlı gələcəklə bağlı ümumi baxışlarımız bağlayır. Bu gün bu əlaqələr daha da güclənir. Zati-aliləri, sizin dəstəyiniz sayəsində biz Azərbaycanda ilk dəfə olan istehlak səviyyəsində günəş enerjisi layihəsinin təməlqoyma mərasimini qeyd edirik. Böyük şərəf hissi ilə bu layihədə sizinlə işləmək fürsəti bizə nəsib oldu. Mən bu mühüm layihənin gerçəkləşdirilməsinə yardım etmək məqsədilə "Masdar" şirkətinə və Birləşmiş Ərəb Əmirliyinə etimad göstərdiyinə görə Azərbaycan Prezidenti Zati-aliləri İlham Əliyevə, Azərbaycan dövlətinə şəxsən təşəkkürümü bildirmək istəyirəm."

**Prezident:**

> "Bizim siyasətimiz, ilk növbədə, azad edilmiş torpaqları bərpa etmək və ölkəmizin dayanıqlı inkişafını təmin etməkdir"

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin energetika və infrastruktur naziri Suhail Al Mazrouei stansiyanın təməlini qoydular.



# “Bu, bizim əməkdaşlığımızın yalnız başlanğıcıdır”

**Prezident İlham Əliyev dünən Birləşmiş Ərəb Əmirliklərinin energetika və infrastruktur naziri Suhail Al Mazroueinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Nümayəndə heyətini salamlayan Prezident İlham Əliyev diqqətə çatdırıb ki, biz ticarətdə, siyasi təmaslarda yaxşı nəticələr əldə etmişik və iki ölkənin rəhbərləri arasında münasibətlər çox səmimidir:**

”Ümidvaram ki, növbəti il biz artıq stansiyanın istismarının başlanğıcını qeyd etmək məqsədilə daha bir mərasim keçirəcəyik. Bu, həqiqətən də böyük və mühüm əhəmiyyət kəsb edən tədbirdir. Çünki bu stansiya Azərbaycanda tikiləcək belə miqyasda olan ilk günəş elektrik stansiyasıdır. Bu stansiya bu sahədə ən aparıcı şirkətlərdən biri tərəfindən inşa ediləcək və çıxışımda qeyd etdiyim kimi, dost ölkədən olan şirkət tərəfindən. Bu, çox vacibdir. Düşünürəm ki, bu, bizim əməkdaşlığımızın yalnız başlanğıcıdır. Əminəm ki, başqa sahələrdə olduğu kimi, bərpaolunan enerji sahəsində də biz bir çox imkanları taparaq kəşf edəcəyik. Əlbəttə ki, biz ticarətdə, siyasi təmaslarda yaxşı nəticələr əldə etmişik və iki ölkənin rəhbərləri arasında münasibətlər çox səmimidir. Əminəm ki, biz bərpaolunan enerji sahəsində uğur qazanacağıq. Dünya enerji bazarında cari vəziyyəti nəzərə alaraq hesab edirəm ki, biz daha geniş mənzərəyə nəzər sala bilərik.”

Nazir Suhail Al Mazrouei görüşdə qeyd edib ki, Azərbaycan həqiqətən də həm turistlər, həm də birbaşa xarici investisiyalar üçün cəlbedici olub: ”Zati-aliləri, Birləşmiş Ərəb Əmirlikləri və ”Masdar” şirkəti olaraq Sizi əmin etmək istərdik ki, bərpaolunan enerji ilə bağlı strategiyanıza dəstək olmağa sadiqik. Biz, həmçinin digər layihələrdə iştirakda maraqlıyıq. Mənim azərbaycanlı həmkarımla müzakirə apardığım kimi, məsələn, qaz mövzusu. Bugünkü vəziyyətə nəzər salsaq, mənbələrin şaxələndirilməsi üçün Azərbaycandan Avropaya daha çox qaz nəql oluna bilər. Eləcə də, hidrogen. Qaz kəmərindən istifadə etməklə gələcəkdə hidrogen Azərbaycanın ixrac edə biləcəyi yaşıl enerjinin bir forması ola bilər.”

# Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Torpaq çərşənbəsi münasibətilə paylaşım edib






**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Torpaq çərşənbəsi münasibətilə paylaşım edib.**

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: ”Qoy Torpaq çərşənbəsi hər evə, hər ocağa bol sevinc, ruzi-bərəkət və firavanlıq gətirsin!”.







# İtaliya saytları Şərqi Zəngəzur ilə Naxçıvan arasında yeni kommunikasiya bağlantısından yazıb

**İtaliyanın ”Scenari Internazionali”, ”Notizie Geopolitiche”, ”Insideover”, ”Sardegnagol”, ”Kmetro0”, ”Agenzia Nova”, ”Globus Magazine”, ”il Corriere della Sicilia” kimi kütləvi informasiya vasitələri Azərbaycan ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının 15-ci iclası çərçivəsində imzalanmış ”İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında anlaşma memorandumu”ndan və bu sənədin əhəmiyyətindən yazıb.**







AZƏRTAC xəbər verir ki, xəbərlərdə bu memorandumun məqsədinin Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə İran İslam Respublikasının ərazisindən keçməklə Naxçıvan Muxtar Respublikası arasında yeni dəmir və avtomobil yolları əlaqəsinin, eləcə də rabitə və enerji təminatı xətlərinin yaradılmasından ibarət olduğu, buna nail olmaq üçün Araz çayı üzərində iki avtomobil (piyada keçidi ilə) və iki dəmir yolu olmaqla ümumilikdə dörd körpünün, eləcə də rabitə və enerji təminatı infrastrukturunun tikintisinin nəzərdə tutulduğu bildirilir.

Yazılarda bu memorandumu tarixi hadisə kimi qiymətləndirən Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin fikirlərinə istinad olunur: ”Dövlətimizin başçısı bu əhəmiyyətli nəqliyyat-kommunikasiya layihəsini daim diqqət mərkəzində saxlayır, onun icrası ilə əlaqədar aidiyyəti qurumlara tapşırıqlar verilir. Bu layihənin həyata keçirilməsi nəticəsində uzun illər ərzində Ermənistanın Naxçıvanı blokadada saxlaması siyasətinə son qoyulacaq. Azərbaycanın iki regionu - Şərqi Zəngəzur ilə Naxçıvan arasında İran ərazisindən keçməklə avtomobil, dəmir yolu, enerji və rabitə bağlantısı yaradılacaq. Layihə bütövlükdə regionun nəqliyyat-kommunikasiya mənzərəsini dəyişir, Azərbaycan, İran və Türkiyəni birləşdirərək Avrasiyada avtomobil, dəmir yolu, elektrik enerjisi xətti və rəqəmsal bağlantıların daxil olduğu yeni çoxtəyinatlı dəhlizin əsasını qoyur”.

Habelə məlumatlarda Hikmət Hacıyevin fikirlərinə istinadən bildirilir: ”Bu, Türkiyə, İran və Azərbaycanı birləşdirən dəhlizdir. Bu, eyni zamanda, Avrasiyada yeni bir dəhliz olacaq ki, bütün nəqliyyat mənzərəsini dəyişəcək. Təbii ki, bundan bizim ölkələrimiz qazandı. Bəs qazanmayan kim oldu? Ermənistan! Yəni, Ermənistan istəmir deyə, biz onu gözləyəsi deyilik. Azərbaycan bu pozitiv gündəliyini bundan sonra da davam etdirəcək”.

Dərc olunmuş yazılarda, həmçinin münaqişə zamanı bütün kommunikasiya və nəqliyyat layihələrinin, o cümlədən Bakı-Tbilisi-Ceyhan neft kəməri, Cənub Qaz Dəhlizi, Bakı-Tbilisi-Qars dəmir yolu xətti və sair layihələrin Ermənistandan yan keçdiyi xatırladılır. Bir il yarımdan artıq müddətdir Zəngəzur dəhlizi ilə bağlı məsələdə nələrin olacağı ilə bağlı Ermənistandan bir cavabın gəlmədiyi bildirilir. İrəvanın regionda müharibədən sonrakı yeni reallıqları başa düşə bilmədiyinin göründüyü, səmərə əldə etməkdə gecikdiyi və bölgədə daha bir inkişaf və inteqrasiya imkanını itirmək riski ilə üzləşdiyi qeyd olunur.

# Azərbaycan-Böyük Britaniya əlaqələri tarixi və strateji əhəmiyyətə malikdir



Azərbaycanın milli maraqlarımıza uyğun olaraq apardığı müstəqil xarici siyasəti ölkəmizin beynəlxalq nüfuzunu getdikcə artırmağa, dostlarımızın və tərəfdaşlarımızın sayının çoxalmasına zəmin yaradıb. Azərbaycan-Böyük Britaniya münasibətlərinin müasir tarixi ötən əsrin 90-cı illərin əvvəllərinə təsadüf edir. Sovet İttifaqı dağıldıqdan sonra Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də öz müstəqilliyini yenidən bərpa etdi və çox keçmədi ki, Böyük Britaniya Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 31-də tanıdığını və onunla hərtərəfli əlaqələri inkişaf etdirməyə hazır olduğunu bəyan etdi. Azərbaycanla Böyük Britaniya arasında 11 mart 1992-ci ildə diplomatik münasibətlər barədə saziş imzalanıb. Həmin tarixdən 30 il ötür. Bu illər ərizində iki ölkə arasında əlaqələrin inkişaf etdirilməsi baxımından yüksək tarixi nailiyyətlər əldə edilmişdir. Heç şübhəsiz ki, bu uğurların qazanılmasında Ümummilli Lider Heydər Əliyevin zəngin siyasi təcrübəsinin, regionda cərəyan edən prosesləri proqnozlaşdırmaq və dəqiq qiymətləndirmək bacarığının mühüm rolu vardır. Böyük Britaniyanın Azərbaycandakı səfirliyi 1992-ci ilin sentyabrında ticarət nümayəndəliyi kimi fəaliyyətə başlayıb. Londonda Azərbaycan səfirliyi isə 1994-cü ilin yanvar ayından fəaliyyət göstərir. Qısa dövr ərzində iki ölkə arasında əlaqələrin inkişaf etdirilməsi baxımından yüksək tarixi nailiyyətlər əldə edilmişdir.

1993-cü ildə Ulu Öndər Heydər Əliyev Böyük Britaniyanın Azərbaycana yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri ilə görüşüb. Görüş Ermənistanın Azərbaycana qarşı təcavüzünün qızğın dövründə, erməni silahlı birləşmələrinin Azərbaycanın Ağdam rayonuna hücumları vaxtı keçirilib. Səfir Tomas Yanq Ulu Öndər Heydər Əliyevə Britaniya hökumətinin Azərbaycanın sərhədlərinin toxunulmazlığını tanıdığını bildirib və həmin dövrdə BMT Təhlükəsizlik Şurasının sədri kimi Birləşmiş Krallığın öz səlahiyyətlərindən məsələnin həllində kömək üçün istifadə edəcəyini bildirib. Tomas Yanqın bəyanatına uyğun olaraq Britaniya hökuməti 27 iyul 1993-cü ildə Ağdamın Ermənistan tərəfindən işğal olunmasına etirazını bildirib. Bir gün sonra isə BMT TŞ-də müzakirələr nəticəsində sədrlik edən Britaniyanın da təsiri ilə həmin rayonun işğalına qarşı 853 saylı qətnamə qəbul olunub.

## "ƏSRİN MÜQAVİLƏSİ"NİN İMZALANMASI İLƏ "Bİ-Pİ/STATOYL" ALYANSININ ÖLKƏMİZDƏKİ FƏALİYYƏTİNDƏ YENİ MƏRHƏLƏ BAŞLANDI

Ulu Öndər Heydər Əliyev 22-25 fevral 1994-cü ildə ilk dəfə həmin ölkədə rəsmi səfərdə olub. Səfər zamanı Ümummilli Lider Heydər Əliyev və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Con Meycor iki ölkə arasında əməkdaşlıq məsələlərini tənzimləyən başlıca sazişi - Azərbaycan Respublikası və Böyük Britaniya arasında "Dostluq və əməkdaşlıq haqqında birgə bəyannamə"ni imzalayıblar. Ümummilli Lider Böyük Britaniyaya ilk səfərində Azərbaycanın Birləşmiş Krallıqla əməkdaşlıqda əsas məqsədini ifadə edib: "...Böyük Britaniyanı dünya siyasətində sanballı, siyasi çəkisi olan ölkə, dünya iqtisadi sistemində çox mühüm yer tutan, zəngin tarixi və ənənələri olan ölkə, hərtərəfli əməkdaşlıq yaratmaqla ondan çox şey öyrənmək mümkün olan ölkə hesab edirik."

19-24 iyul 1998-ci ildə Heydər Əliyevin Böyük Britaniyaya ikinci rəsmi səfəri baş tutub. Səfər ölkələr arasında ikitərəfli münasibətlərin inkişafında əsaslı rol oynayıb. Ümummilli Lider tərəfindən uğurla inkişaf etdirilən iki ölkə arasındakı əlaqələr Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilir. Dövlətimizin başçısının 2004, 2009 və 2018-ci illərdə Böyük Britaniyaya rəsmi səfəri baş tutmuşdur.

Prezident İlham Əliyev ötən ilin fevralın 9-da Böyük Britaniyanın Avropa qonşuluğu və Amerika məsələləri üzrə dövlət naziri xanım Vendi Mortonu qəbul edərkən bildirmişdi: "Biz region ölkələri, Avropa İttifaqı arasında çox nadir əməkdaşlıq formatını yaratmışıq və buna Birləşmiş Krallıq və Amerika Birləşmiş Ştatlarının hökumətləri tərəfindən güclü dəstək göstərilir".

Xüsusilə, qeyd etmək lazımdır ki, Böyük Britaniya ilk Qərb dövlətidir ki, Azərbaycana qoyulacaq maliyyə vəsaitlərinə dövlət zəmanəti verir və hər cür investisiya qoyulmasını rəsmi alqışlayır. Britaniya hökumətinin 25 milyon dollar həcmində dövlət təminatına dair ilk qərarı 1996-cı ilin iyununda verilmişdir. Britaniya hökumətinin 1998-ci ilin əvvəlində qəbul etdiyi qərarla Azərbaycana kreditlər üzrə təminatların həcmi 100 milyon dollardan yuxarı artırılmışdır ki, bu da Rusiyadan başqa digər MDB ölkələri üçün verilmiş kreditlərin həcmindən çoxdur.

İki ölkə arasında siyasi münasibətlərimizin yüksək səviyyədə olması iqtisadi münasibətlərə də öz müsbət təsirini göstərib. Böyük Britaniya Azərbaycana yatırılan investisiyanın həcminə görə liderliyi saxlamaqdadır. Ölkələrimiz neft-qaz sənayesi sahəsində uğurla əməkdaşlıq edir. BP şirkəti ilə həyata keçirilən səmərəli əməkdaşlıq əlaqələri uğurla davam etdirilir. Şirkət Azərbaycanın neft-qaz sektorunun inkişafına və modernləşdirilməsinə mühüm töhfələr verməklə enerji sektorunda ölkəmizin əsas tərəfdaşı qismində çıxış edir.

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Azərbaycanda ən böyük xarici investorlardan biridir. Böyük Britaniya Azərbaycana yatırılan investisiyanın həcminə görə liderliyi saxlamaqdadır və bu rəqəm 27 milyard ABŞ dollarını keçib. Bu gün Azərbaycanda 500-ə yaxın Britaniya sərmayəli şirkət var və onların arasında qeyri-neft sektorunda fəaliyyət göstərənlərin sayı çoxdur. Hazırda da qeyri-neft sahəsində ikitərəfli əlaqələrin inkişaf etdirilməsinə böyük diqqət verilməkdədir. İndiyədək Azərbaycan və Böyük Britaniya arasında 10-a yaxın biznes forum və investisiya sammiti təşkil edilib.

Xüsusi olaraq qeyd edək ki, "Əsrin Müqaviləsi"nin imzalanması ilə "Bi-Pi/Statoyl" alyansının ölkəmizdəki fəaliyyətində yeni mərhələ başlanmışdır.

BP şirkəti ilə 1994-cü ilin 20 sentyabr tarixində imzalanmış və 2017-ci il sentyabr ayında müddəti 2050-ci ilədək uzadılmış "Əsrin Müqaviləsi"si ilə Xəzər dənizinin Azərbaycan sektorunda həyata keçirilən "Azəri", "Çıraq", "Günəşli" yataqlarının işlənməsi layihəsində operator kimi bugünə qədər səmərəli fəaliyyət göstərmişdir. BP şirkəti ilə həmçinin "Şahdəniz", "İnnam", "Şəfəq-Asiman", "Abşeron Yarımadası Dayazsulu sahə" layihələri üzrə Hasilatın Pay Bölgüsü Sazişləri imzalanmış, o cümlədən Bakı-Tbilisi-Ceyhan, Cənub Qaz Dəhlizi boru kəməri layihələrində də uğurlu əməkdaşlıq yaranmışdır.

2004-cü ilin dekabrında Azərbaycan Prezidenti İlham Əliyevin Böyük Britaniyaya səfəri zamanı İlham Əliyevin ölkənin baş naziri Toni Bleyerlə görüşündə 1998-ci ildə imzalanmış "Dostluq münasibətləri və tərəfdaşlıq haqqında bəyannamə" yenidən təsdiqlənib. Bleyer və İlham Əliyev eyni zamanda ikitərəfli münasibətlərin əsası kimi Birgə Kommunike də qəbul edilib.

12-13 iyul 2009-cu il tarixdə Prezident İlham Əliyev Böyük Britaniyaya növbəti səfəri çərçivəsində Baş nazir Qordon Braunla görüşüb. Azərbaycanın antiterror koalisiyasında iştirakına toxunan Qordon Braun ölkəmizin bu istiqamətdə fəaliyyətinin Böyük Britaniya hökuməti tərəfindən yüksək qiymətləndirildiyini bildirib. Prezident İlham Əliyevi demokratiya sahəsində əldə edilmiş uğurlar münasibətilə təbrik edən Baş nazir Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin genişlənməsini müsbət hal kimi dəyərləndirib.

2012-ci il iyulun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Azərbaycanın Birinci Xanımı Mehriban Əliyeva Böyük Britaniyaya işgüzar səfərdə olublar. İyulun 28-də Londonda XXX Yay Olimpiya Oyunları çərçivəsində "Azərbaycan günü" keçirilib. 2014-cü il sentyabrın 4-də Prezident İlham Əliyev Böyük Britaniya krallığında - Uelsdə NATO sammitinin açılışında iştirak edib. Tədbirdə Alyansa üzv olan və İSAF proqramında iştirak edən tərəfdaş ölkələrdən, BMT və digər beynəlxalq təşkilatlardan nümayəndələr iştirak ediblər. NATO-nun Zirvə toplantısının Əfqanıstan üzrə görüşündə Azərbaycan Prezidenti İlham Əliyev çıxış edib.

## TƏHSİL, ELM VƏ MƏDƏNİYYƏT SAHƏSİNDƏKİ ƏMƏKDAŞLIQ İKİ DÖVLƏT ARASINDA MƏDƏNİ ƏMƏKDAŞLIĞIN ƏSASINI QOYDU

Növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti 2018-ci ilin 26 aprel tarixində Böyük Britaniya Baş nazirinin dəvəti əsasında bu ölkəyə işgüzar səfər edib. Səfər çərçivəsində görüşlər keçirilib və qarşılıqlı əməkdaşlığa bağlı saziş imzalanıb.

Ulu Öndər Heydər Əliyev və Böyük Britaniyanın Baş naziri Con Meycor tərəfindən 23 fevral 1994-cü ildə imzalanmış "Təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığa dair saziş" Britaniya ilə Azərbaycan arasında mədəni əməkdaşlığın hüquqi əsasını qoyub. Azərbaycan və Britaniya xalqları arasında təhsil, elm və mədəniyyət sahələrində əlaqələrin inkişafında tarixi əhəmiyyət daşıyan bu saziş imzalandığı gündən iki ölkə arasında qarşılıqlı anlaşmaya geniş zəmin yaradıb. Bundan sonra Böyük Britaniyanın xarici ölkələrlə elmi-mədəni əlaqələrini təşkil edən əsas təşkilat olan British Council Azərbaycanda fəaliyyətini genişləndirib. Sazişin 14-cü maddəsinə əsasən British Council iki ölkə arasında təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlıqda Böyük Britaniya hökumətinin əsas vasitəçisidir. Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə British Council-ın səmərəli fəaliyyəti Ulu Öndər Heydər Əliyev və Birləşmiş Krallığın baş naziri Toni Bleyerin 1998-ci ilin iyulun 21-də imzaladıqları birgə bəyannamədə də qiymətləndirilib.

2013-cü ildə Böyük Britaniyanın Oksford Universitetində Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzi və 2016-cı ildə Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondu təsis edilmişdir. Bundan əlavə, Oksford Universitetinin Şərqşünaslıq İnstitutunun kitabxanasına Nizami Gəncəvinin adı verilmişdir ki, beləliklə də, sözügedən qurumların təşəbbüsü ilə hər il Bakıda və Londonda çox sayda mədəni və elmi tədbirlər keçirilir.

Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonu qəbul etməsi mövcud əlaqələrin davamlı olduğunu göstərir. Prezident İlham Əliyev bu il Azərbaycanla Böyük Britaniya arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd olunduğunu məmnunluqla xatırladıb. Dövlətimizin başçısı Azərbaycan ilə Böyük Britaniya əlaqələrinin yüksək səviyyədə olduğunu və strateji tərəfdaşlıq zəminində inkişaf etdiyini vurğulayaraq ölkələrimiz arasında qarşılıqlı inam və etimadın olduğunu qeyd edib.

Prezident İlham Əliyev Böyük Britaniyanın Azərbaycanın əsas ticarət tərəfdaşı və iqtisadiyyatımıza ən böyük sərmayə qoyan ölkə olduğunu bildirib, iqtisadi, ticarət əlaqələrinin genişlənməsini, enerji sahəsində əməkdaşlıq və bu sahədə BP-nin ölkəmizdə uğurlu fəaliyyətini xüsusilə vurğulayıb.

İşğal dövründə ermənilərin şəhər və kəndlərimizdəki tarixi, mədəni, dini abidələri və tikililəri vəhşicəsinə dağıtdıqlarını, torpaqlarımızda vandalizm əməlləri törətdiklərini deyən Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə Azərbaycanın daxili imkanlar hesabına həyata keçirdiyi genişmiqyaslı quruculuq prosesi barədə məlumat verib.

## BÖYÜK BRİTANİYANIN 600-DƏN ÇOX ŞİRKƏTİ AZƏRBAYCANDA FƏALİYYƏTDƏDİR

Vətən müharibəsindəki möhtəşəm qələbədən və uzun illər davam edən regionda sülhə və təhlükəsizliyə böyük təhdid olan Qarabağ münaqişəsinin həllindən sonra Azərbaycanın beynəlxalq nüfuzu daha da artmış, regionda yeni bir situasiya yaranmışdır. Azərbaycan Respublikasının Prezidenti tərəfindən işğaldan azad olunmuş ərazilərin "Yaşıl zona" elan edilməsi, "Ağıllı şəhər", "Ağıllı kənd" layihələri, Şuşa şəhərinin Azərbaycanın "Mədəniyyət paytaxtı" elan edilməsi, aparılan abadlıq və quruculuq işləri dost ölkələrin və həmin ölkələrin şirkətlərinin regiona marağını daha da artırmışdır.

Böyük Britaniya da Azərbaycana dost ölkələrdən biridir. Azərbaycanın ərazi bütövlüyü və suverenliyini tanıyıb. 44 günlük Vətən müharibəsi dövründə də Böyük Britaniya obyektiv münasibət sərgilədi və münasibətlərimizə xələl gətirəcək addım atmadı.

Böyük Britaniya dünyanın ən nəhəng neft şirkətlərindən olan "BP"-nin timsalında Azərbaycana 30 mlrd dollardan çox investisiya yatırıb. Hazırda Böyük Britaniyanın 600-dən çox şirkəti Azərbaycanda fəaliyyətdədir. İndi isə işğaldan azad edilmiş ərazilərdə şəhərsalma, abadlıq və bərpa işlərinə, həmçinin bərpa olunan enerji sektoruna cəlb edilməsi Azərbaycan-Böyük Britaniya əlaqələrinin inkişafında yeni imkanlar və perspektivlər açır. İşğaldan azad olunmuş Azərbaycan ərazilərində yaşıl enerji zonalarının yaradılması, həmçinin, bu ərazilərdə bərpa olunan enerjidən istifadə işində Britaniya şirkətləri maraqlıdır. Bu əlaqələr iki ölkələr arasındakı əməkdaşlığın daha da genişləndirilməsinə xidmət edəcəkdir.

*Zümrüd BAYRAMOVA*

SİYASİ RAKURS+AKTUAL

# İlham Əliyevin Türkiyə səfəri - reallıqlar və perspektivlər nə vəd edir?

## *Həm Ankara, həm də Bakı koordinasiyalı şəkildə davamlı fəaliyyətlərini daha da gücləndirirlər*



Beynəlxalq səviyyəyə yüksəlmiş siyasi hərarət və qlobal qeyri-sabitlik fonunda Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə səfəri ayrıca özəlliyi və əhəmiyyəti ilə seçilir. Qardaş ölkəyə səfərin bir neçə gün əvvəl Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun Bakını rəsmi ziyarətindən sonra baş tutması isə ilk növbədə belə bir nəticə hasil edir ki, gündəmdə dayanan çoxsaylı məsələlərlə paralel olaraq, həm də hər iki dövlət arasında münbit proseslər öz uğurlu axarı ilə getməkdədir. Daha dəqiq desək, həm Ankara, həm də Bakı koordinasiyalı şəkildə davamlı fəaliyyətlərini daha da gücləndirirlər.

### Regional təhlükəsizlik faktoru ən öndə dayanan məsələ kimi gündəmdə saxlanılır

Əsasən, ən öndə dayanan məsələ məhz təhlükəsizlik faktoru ilə bağlıdır. Xüsusilə, Ukraynada davam edən müharibədə həm Azərbaycanın, həm də Türkiyənin yeri və rolu fərqli müstəvidəki önəmliyi və ayrıca spesifikliyi ilə seçilməkdədir. Belə ki, hər iki ölkə Ukraynanın ərazi bütövlüyünü dəstəkləyir və Rusiyaya qarşı sanksiyalara qoşulmur.

Azərbaycan və Türkiyə Ukraynaya davamlı humanitar yardımlar ayırır. Ankara və Bakı həm Moskva, həm də Kiyev arasında rabitə-ünsiyyəti kanalını təmin edə bilir, hər an vasitəçilik imkanlarını təklif edir. Azərbaycanla Türkiyənin daha bir üstünlüyü nəqliyyat və enerji infrastrukturu sahəsində bütün tələbatlara cavab verməmləri reallığı ilə bağlıdır. Və bu da son deyil...

### Hərbi müttəfiqlik qlobal təhlükələrdən mühafizə olunmaq üçün ən doğru seçimdir!

Artıq hazırkı dövrə qədər qarşıya qoyulmuş məqsədlərin bir çoxu öz həllini tapıb və bununla kifayətlənməyən iki qardaş ölkənin yaxın perspektiv üçün növbəti realizə olunacaq mühüm qərar və planları mövcuddur. Biz burada hansı amilləri ehtimal edə bilərik? Misal üçün, ehtimal etmək mümkündür ki, müttəfiq ölkələr olaraq hərbi-müdafiə sahəsindəki əməkdaşlıq möhkəmləndirilir. Hətta yaxın vaxtlarda məhz 2020-ci ilin sentyabr ayının 27-nə qədər keçirilən irimiqyaslı hərbi təlimlər kimi yenidən bu kimi təlimlərin keçirilməsi, üstəlik, davamlı xarakter alması mümkün görünür. Həmin təlimlər isə yalnız hərbi gücün və qüdrətin göstəricisi kimi deyil, eyni zamanda, qlobal təhlükəsizlik təminatı baxımından çox mühümdür və hər iki müttəfiq ölkənin, eləcə də regionun mümkün təhlükələrdən mühafizə edilməsi üçün əhəmiyyət kəsb edir.

### Regionun yaxın gələcəyi və uğurlu perspektivləri üçün Zəngəzur dəhlizinin realizəsi zəruri tələbata çevrilib

Ukraynadakı müharibə istər-istəməz dünyanın iqtisadi çevrəsinə də ciddi zərbələr vurmaqdadır və söz yox ki, Azərbaycan və Türkiyə liderlənin enerji daşıyıcıları ilə bağlı demək olar ki, daimi olaraq apardıqları müzakirələr bu dəfə də gündəm mövzusu olaraq qalmaqdadır. Bakı və Ankara bu kimi məsələlərdə hər zaman qarşılıqlı güzəştlərə, qiymət endirimlərinə gediblər və faktdır ki, belə bir əməkdaşlıq amili başqa müxtəlif müttəfiq ölkələr arasında elə də çox qeydə alınmır. Yəni bu faktın özü də digər ölkələrə olan nümunə sayıla bilər.

Mühüm məsələlərdən biri də kəmərlərin təhlükəsizliyinin təminatı, eləcə də Xəzər dənizini Qara dənizlə birləşdirən dəmir yolları və avtomobil yollarının Şərq-Qərb yükdaşınmaları kontekstindəki əhəmiyyəti daha çox görünməyə başlayır.

Lakin ən önəmli məsələ Zəngəzur dəhlizinin realizəsi ilə bağlıdır. Dəhlizin işə salınması isə belə bir çətin dövrdə zəruri tələbata çevrilib. Məhz bu baxımdan, iki qardaş ölkə liderlərinin əldə etdikləri və bundan sonra da əldə edəcəkləri qarşılıqlı razılaşmalarının regionun yaxın gələcəyi və uğurlu perspektivləri üçün nə qədər mühüm amillərə söykəndiyini indidən müəyyən etmək mümkündür.

**Rövşən RƏSULOV**



## "Rusiya NATO-ya qarşı çox zəifdir"

"Əgər Rusiya NATO-nun Polşadakı hərbi aerodromuna raket zərbəsi endiribsə bu, təbii ki, Polşaya və NATO-ya qarşı tərəfə cavab vermək hüququnu tanıyır. Həm BMT Nizamnaməsinin 51-ci maddəsinə, həm də NATO müqaviləsinin 5-ci maddəsinə görə NATO cavab tədbirləri görmək hüququna malikdir". Bunu SİA-ya açıqlamasında politoloq Fərhad Mehdiyev bildirib.

Onun sözlərinə görə, NATO buna gedər yoxsa yox, bu ayrı məsələdir: "Baş verənlər 3-cü dünya müharibəsinin başlanmasına yol aça bilərmi, suala gəlincə isə onu deyə bilərəm ki, Rusiyanın hərbi qüvvəsi 3-cü dünya müharibəsinin başlamasına kifayət deyil. Burada pis şey o ola bilər ki, Rusiya ancaq nüvə zərbəsini endirməyə cəhd edə bilər. Yoxsa qalan məsələlərdə Rusiya NATO-ya qarşı çox zəifdir. Nüvə silahını istifadə etməsə Rusiya heç yarım ay belə NATO-ya duruş gətirə bilməz. NATO raket zərbələri və aviasiya ilə qısa müddətdə Rusiyanı ciddi şəkildə çökdürə bilər".

***Gülyana***

## Azərbaycanda tullantılar necə istifadə olunur? - MARAQLI FAKTLAR

"Əslində tullantılardan istifadə etmək lazımdır. O mənada ki, faydalı istiqamət olaraq onları utilizasiya edərək, təkrar emal etmək lazımdır". Bu sözləri SİA-ya açıqlamasında ekoloq Cəmşid Quliyev bildirib.



Onun sözlərinə görə, Bakı şəhərinin məişət tullantıları poliqonunda təkrar emal zavodu inşa olunub: "Bu bir şirkətin təşəbbüsü ilə yaradılıb. Bu piloqonda məişət tullantıları təmizlənərək, müxtəlif növlər üzrə təkrar emal müəssisəsinə göndərilir. Onlardan təkrar məhsullar istehsal edilir. Bu məişət tullantılarının ən düzgün istifadəsidir. Əslində isə bu adını çəkdiyim poliqon istisna olmaqla Azərbaycanın bir çox şəhərlərində məişət tullantılarından bu cür istifadə edilmir. Onlar zibilxanalara toplanaraq, yalnız ətrafa üfunət və xəstəlik yayır. Yerdə qalan hallarda isə məişət tullantıları adi qaydada ətrafı çirkləndirməkdən başqa bir işə yaramır. Onlar istifadəyə yararsız olur. Bir də bəzi rayonlarımızda kanalizasiya xətləri üzərində quraşdırılan su təmizləyici qurğular var. Bunları da məişət tullantılarının düzgün istifadəsi halı kimi qəbul eləmək lazımdır. Bu su təmizləyici qurğular vasitəsilə təmizlənən sular suvarma məqsədi ilə yenidən istifadəyə yönləndirilir. Bunlardan ayrılan digər maddələr isə gübrə kimi istifadə olunur. Bu da çox təqdirəlayiq haldır. Ətrafı çirklənmədən qorumaqla yanaşı, həm də onlardan fayda əldə edə bilirik".

***Səbinə Hüseynli***

# XİN: Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması ilə bağlı ölkəmizin mövqeyi aydın və ardıcıldır

***Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması ilə bağlı Azərbaycanın mövqeyi aydın və ardıcıldır. Biz dəfələrlə bildirdiyimiz mövqeyi yenidən təkrar etməyə lüzum görmürük. AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin Azərbaycanın iki dövlət arasında münasibətlərin normallaşmasına dair təklifləri ilə bağlı Ermənistanın xarici işlər naziri A.Mirzoyanın söylədiklərinə dair şərhində bildirilib.***



Qeyd olunub ki, Azərbaycan münaqişə sonrası iki ölkə arasında münasibətlərin normallaşması və bölgədə sülh quruculuğu məsələlərinin vacibliyini nəzərə alaraq, bu xüsusda təkliflərini irəli sürüb və bu istiqamətdə irəliləməyə hazırdır.

Əgər Ermənistan da məsələyə ciddi şəkildə yanaşırsa, o zaman konkret təkliflərini təqdim etməli, beləliklə, substantiv və nəticəyə yönəlik danışıqlara başlamağa hazır olduğunu nümayiş etdirməlidir.

# “Böyük siyasətin uğurlu davamı” mövzusunda konfrans keçirilib

**Martın 15-də Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının təşkilatçılığı ilə partiyanın Nəsimi rayon təşkilatının qərargahında ”Böyük siyasətin uğurlu davamı” mövzusunda konfrans keçirilib. SİA-nın verdiyi məlumata görə, konfransı giriş sözü ilə açan YAP Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov tədbirin aktual mövzuya həsr olunduğunu bildirib.**

YAP Veteranlar Şurasının sədri Arif Rəhimzadə çıxış edərək dövlətimizin həyata keçirdiyi daxili və xarici siyasətin uğurlarından bəhs edib. O qeyd edib ki, bu gün












Azərbaycan dünyada nüfuzlu dövlət kimi tanınır: ”Azərbaycanın indiki səviyyəyə çatmasında ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf siyasəti başlıca rol oynayır. Bu siyasətin Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ölkəmizin beynəlxalq müstəvidə mövqelərini daha da gücləndirib. Hazırda dünyada baş verən mürəkkəb proseslər fonunda Azərbaycan bir çox ölkələrlə, xüsusilə yaxın qonşularla münasibətlərini daha da gücləndirir. Fevralın 22-də Moskvada Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin arasında imzalanmış müttəfiqlik haqqında Bəyannamə də bu baxımdan xüsusi vurğulanmalıdır. Ötən il isə Azərbaycan və Türkiyə prezidentlərinin imzaladığı Şuşa Bəyannaməsi də tarixi əhəmiyyətə malik olan sənəddir. Bütün bunlar dövlətimizin regionda və dünyada mövqelərini gücləndirir”.

Konfransda məruzə ilə çıxış edən Psixoloji Portretologiya və Siyasi Analizlər Mərkəzinin rəhbəri Adıgözəl Məmmədov Moskva Bəyannaməsinin əhəmiyyətindən danışıb. O bildirib ki, Rusiya ilə Azərbaycan arasında münasibətlərin strateji təmələ şöykənən inkişafı ümummilli liderimiz Heydər Əliyevin siyasi hakimiyyətə yenidən qayıtdığı illərə təsadüf edir. Onun sözlərinə görə, bu il fevralın 22-də imzalanmış Moskva Bəyannaməsi isə Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında bərabər hüquqlu və qarşılıqlı faydalı əməkdaşlığın stimullaşdırılmasına və dərinləşməsinə xidmət edəcək: ”Prezident İlham Əliyevin xarici siyasətində Rusiya ilə əlaqələr xüsusi yer tutur. Moskva Bəyannaməsinin imzalanması da bunu təsdiqləyir. Dövlətimizin başçısının həyata keçirdiyi düşünülmüş, davamlı siyasət yalnız Azərbaycan xalqının milli maraqlarına söykənir”.

Çıxış edən YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Auditorlar Palatasının sədri, professor Vahid Novruzov bildirib ki,







Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strategiya Azərbaycanın milli maraqlarının müdafiəsini, ölkəmizin sosial-iqtisadi inkişafında davamlılığı və dayanıqlığı özündə ehtiva edir: ”Bu göstərilənlər 2022-ci il 22 fevral tarixində Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin tərəfindən imzalanmış ”Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə”də bariz təsdiqini tapır. Həm Azərbaycan, həm də Rusiya üçün gələcəkdə çox mühüm faydalar vəd edən və tarixi xarakter daşıyan Moskva Bəyannaməsi təkcə iki ölkə arasında münasibətlərin keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi üçün yox, bütövlükdə regionda inkişafın və sülhün bərqərar olması, müstəqilliyin və ərazi bütövlüyünün təminatı üçün mühüm zəmin yaradır”. V.Novruzov qeyd edib ki, həm Şuşa, həm də Moskva bəyannaməsi Azərbaycanın müstəqilliyinin və suverenliyinin möhkəmlənməsi, təhlükəsizliyinin təmin olunması məqsədinə xidmət edir.

Konfransda eyni zamanda, Nəsimi rayonu Ağsaqqallar Şurasının sədri, əməkdar elm xadimi Vaqif Şadlinski və ”91-lər”dən biri Munis Bayramov çıxış edərək Azərbaycanın uğurlarından bəhs ediblər.

Sonra tədbir iştirakçılarının sualları cavablandırılıb.

**“Artıq iki ildir xalqımız birlik, həmrəylik, bolluq, bərəkət rəmzi olan Novruz bayramını fərqli ovqatda, xoş əhval-ruhiyyə ilə qeyd edir. 2020-ci il Azərbaycan tarixinə Qələbə ili kimi yazıldı. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, ordumuzun gücü, qüdrəti, xalqımızın birliyi, həmrəyliyi sayəsində 30 ilə yaxın davam edən erməni işğalına son qoyuldu, ərazi bütövlüyümüz bərpa olundu.**



# “Novruz xalqımızın milli varlıq və mənəviyyat xəzinəsidir”



Ötən il dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və qızları Leyla Əliyevanın Cıdır düzündə Novruz tonqalını alovlandırmaları qalib xalqın öz tarixi torpaqlarına qayıdışının təsdiqi oldu. Ölkə Prezidenti Cıdır düzündən müraciətində bu torpaqlarda əbədi yaşayacağımızı böyük əminliklə qeyd etməklə işğalçı dövlətə və ona havadarlıq edənlərə mesajlarını çatdırdı. Xalqımız bu anı səbirsizliklə gözləyirdi. Cıdır düzündən alovlanan tonqallar xalqımıza 30 illik torpaq həsrətini unutdurub Qələbə sevinci yaşatdı. Bu günlər işğaldan azad edilmiş torpaqlarımızda alovlanan bayram tonqallarının böyük rəmzi və tarixi əhəmiyyəti var. Biz öz tarixi torpaqlarımızdayıq”. Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

Ulu öndər Heydər Əliyevin ”Gün o gün olacaq ki, Novruz bayramını bir dəfə Şuşada, o biri il Laçında, o biri il Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda keçirəcəyik. Əminəm ki, belə də olacaqdır. Mən buna inanıram və bu inamla yaşayıram, bu inamla işləyirəm və bu inamla da Azərbaycan xalqına rəhbərlik edirəm” fikirlərini xatırladan YAP Xətai rayon təşkilatının sədri vurğulayıb ki, Ümummilli Lider torpaqlarımızın işğaldan azad ediləcəyinə tam əmin idi. Bu əminliyə əsas verən Azərbaycanın düşünülmüş siyasəti, ən əsası tarixi faktlara, real məsələlərə əsaslanan təbliğatı və onların uğurlu nəticələri idi. Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Ümummilli Liderin vəsiyyətini və Azərbaycan xalqının arzularını reallaşdırdı. Şuşanın işğaldan azad edilməsi müjdəsini Şəhidlər xiyabanından xalqımıza çatdırarkən ata vəsiyyətini yerinə yetirdiyi üçün özünü xoşbəxt hiss etdiyini xüsusi qeyd etdi.

Vüqar Rəhimzadə Novruz bayramının özəlliklərindən, ənənələrindən bəhs edərək bildirib ki, hər bir dövləti, xalqı dünyada tanıdan onun siyasəti ilə yanaşı, milli-mənəvi dəyərləri, adət-ənənələri, mədəniyyəti və elmi potensialıdır: ”Zəngin tarixə, adət-ənənələrə malik olan Azərbaycan xalqı daim öz tarixi kökləri, milli-mənəvi dəyərləri, zəngin tarixi ilə fəxr etmişdir. Tarixi çox qədim olan Novruz bayramının xalqımız tərəfindən hər il böyük təntənə ilə qeyd olunması da bu bağlılıqdan qaynaqlanır. Dövlət başçısı İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbriklərində də daim bu məqam xüsusi qeyd edilir ki, milli varlıq və mənəviyyat xəzinəsi olan Bahar bayramı müdrik əcdadlarımızın bugünkü nəsillərə misilsiz yadigarıdır. Kainatın dəyişməz ahəngi və əbədi qanunları ilə bağlı bu el bayramı zamanın sınaqlarından çıxmış çoxəsrlik mədəniyyətimizin parlaq təcəssümüdür.”

YAP Xətai rayon təşkilatının sədri vurğulayıb ki, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin hakimiyyətinin hər iki dövründə milli-mənəvi dəyərlərimizin qorunması, inkişafı əsas istiqamətlərdən biri olub: ”Novruzun qədim köklərə malik olduğunu bəyan edən ümummilli lider Heydər Əliyev bu bayramın imperiyanın sərt rejimi dövründə respublika miqyasında yüksək səviyyədə keçirilməsinə nail olmuşdur. Azərbaycan müstəqilliyini yenidən bərpa edəndən sonra xalqımız bu bayramı daha böyük təntənə ilə qeyd etməyə başladı. Novruza ümumxalq mahiyyəti verən ulu öndər Heydər Əliyev bayram şənliklərində hər zaman xalqla bir yerdə olmuş, milli birliyin və həmrəyliyin vacib amil olduğunu önə çəkərək onları bu prinsipləri yüksək səviyyədə qorumağa çağırmışdır. Novruzun ölkəmizdə bu gün də yüksək səviyyədə qeyd olunması ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyevin atdığı addımların məntiqi nəticəsidir. Hər il olduğu kimi, bu il də Novruz bayramını minlərlə soydaşımız ölkəmizin

hüdudlarından uzaqlarda azərbaycançılıq düşüncəsinin işığında, qalibiyyət ruhunda qeyd edir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İCESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın böyük səyi nəticəsində Novruz bayramının UNESCO-nun Qeyri-Maddi-Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilməsi hər bir azərbaycanlının qəlbini iftixar hissi ilə doldurur.”

Vüqar Rəhimzadə qeyd edib ki, Novruz bayramı təkcə onu keçirən türk xalqlarının deyil, ümumilikdə bəşəriyyətin mənəvi dəyəri hesab edilir. Kökləri İslamdan əvvəlki tarixi dövrə gedib çıxan Novruz bayramı Azərbaycanla yanaşı, bütün Şərqdə qeyd olunur. Məhz buna görə də 23 fevral 2010-cu ildə BMT Baş Assambleyasının 64-cü sessiyasının iclasında martın 21-i Beynəlxalq Novruz Günü elan olunub.

Azərbaycanın müxtəlif mədəniyyətlərin və sivilizasiyaların qovşağında yerləşdiyini önə çəkən YAP Xətai rayon təşkilatının sədri bildirib ki, milli-mənəvi dəyərlərimizin qorunması, təbliği istiqamətində biri-birindən əhəmiyyətli addımlar atılır: ”Ölkəmizin beynəlxalq əhəmiyyətli humanitar forumlara ev sahibliyi etməsi də müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasında körpü rolunu oynamasından və bu mövqeyini günbəgün möhkəmləndirməsindən irəli gəlir. Məhz bu uğurlara söykənərək, dövlət başçısı İlham Əliyevin Sərəncamı əsasında 2016-cı il ölkəmizdə ”Multikulturalizm İli”, 2017-ci il ”İslam Həmrəyliyi İli” elan edilmişdir. Bu addımların atılmasında məqsəd ölkəmizin multikultural cəmiyyətlərin formalaşmasına və inkişafına töhfələrini daha da artırmaq idi. Azərbaycanın 2019-cu ildə UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına ev sahibliyi etməsi də ölkəmizin milli-mənəvi dəyərlərinin qorunması, təbliği istiqamətində atdığı addımlardan qaynaqlanmışdır.”

Vüqar Rəhimzadə Novruz ənənələrindən bəhs edərək bildirib ki, bu ənənələr yazılan mahnıların, çəkilən filmlərin vasitəsilə təbliğ olunur, indiki və gələcək nəsillərə çatdırılır. Dövlət başçısı İlham Əliyev daim bu çağırışı edir ki, gənclərimiz milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə olunmalı, milli-mənəvi dəyərlərimizi qorumalı və inkişaf etdirməli, onları yad ünsürlərdən qorumalıdır.

”Tarixi Zəfərimiz xalqımızın milli-mənəvi dəyərlərinə bağlılığının, torpaq, Vətən sevgisinin bir daha təqdimatı oldu” söyləyən Vüqar Rəhimzadə qeyd edib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev Zəfərimizi şərtləndirən amillərdən bəhs edərkən bu məqamı xüsusi qeyd edir ki, mənim prezidentliyim illərində Azərbaycanda torpaq uğrunda canını fəda etməyə daim hazır olan gənc nəsil yetişdi. Bu gənclik öz qanı-canı bahasına torpaqlarımızı düşmənin əlindən aldı. Müharibədə bütün nəsillərin nümayəndələri iştirak ediblər, qəhrəmanlıq göstəriblər. Ölkə Prezidenti bu çağırışı edir ki, amma hər kəs bilməlidir ki, əsas missiyanı mənim prezidentlik dövrümdə yetişən, 2003-cü ildə uşaq olan gənclər yerinə yetiriblər. Tarixi Qələbəmizin qazanılmasında ilk növbədə, onlara, bütün Azərbaycan xalqına borcluyuq.

YAP Xətai rayon təşkilatının sədri birlik, həmrəylik, bolluq, bərəkət rəmzi olan Novruz bayramı münasibətilə xalqımızı təbrik edib, tarixi Zəfərimizin qəhrəmanları olan şəhidlərimizin müqəddəs ruhları qarşısında baş əyərək onlara Allahdan rəhmət, qazilərimizə şəfa diləyib



# “Ermənistan təkliflərimizi qəbul etməlidir, çünki...”

**“Azərbaycan Ermənistana sülh danışıqları ilə bağlı 5 bənddən ibarət təkliflərini göndərib. Əslində bu 5 bəndin hər birisi Azərbaycanın pozulmuş beynəlxalq hüquqlarının və ədalətin bərpasına əsaslanmışdır”. Bunu ”Səs” qəzetinə açıqlamasında millət vəkili Azər Badamov deyib.**

Millət vəkilinin sözlərinə görə, Ermənistan da yaxşı bilir ki, Azərbaycanla masa arxasında oturanda ilk müzakirə olunacaq məsələ təqdim etdiyimiz təkliflərlə bağlı olacaqdır: ”Çünki, Cənab Prezident dəfələrlə qeyd etmişdir ki, bir qarış torpağımız belə Ermənistana verilməyəcəkdir. Bu gün Ermənistan ərazisində anklav kəndlərimiz qalmışdır. Torpaqlarımızı işğal etdiyi 30 ildə Ermənistan həmin kəndlərimizdə heç bir iş görməyib. Ona görə görülməyib ki, ermənilər Azərbaycanın nə vaxtsa öz torpaqlarını işğaldan azad edəcəyini bilirdilər. Qarabağla bağlı isə qələbəmizdən sonra ”Dağlıq Qarabağ” deyilən inzibati ərazi yoxdur, artıq Qarabağ iqtisadi rayonu yaratmışıq. Yəni, Azərbaycan öz konstitusion hüququndan istifadə edərək işğaldan azad olunmuş əraziləri iki iqtisadi rayonda birləşdirdi və ”Dağlıq Qarabağ” ifadəsinə birdəfəlik leksiondan çıxartdı. Ermənistan isə təkliflərimizi qəbul etməlidir. Çünki, 10 noyabrda Ermənistan kapitulyasiya sənədinə imza atmaqla öz məğlubiyyətini etiraf edərək əlavə öhdəliklər götürmüşdür. Azərbaycan həmin öhdəlikləri Ermənistana onun istəyib istəməməyindən asılı olmayaraq icra etdirəcəkdir. Ermənistan bunu yaxşı bilir və gec tez bütün təkliflərimiz icra olunacaqdır. Ermənilər bilirlər ki, cənab Prezidentin səsləndirdiyi hər bir fikir real həyatda öz əksini tapır. Düşünürəm ki, Ermənistan tərəfindən təkliflərimizin qəbul etməsi sadəcə zamanım işidir. Ermənistan tərəfi nə qədər tez təkliflərimizə müsbət cavab verərək sülh müqaviləsinin imzalanmasına razılıqlarını bildirsələr, bu ilk növbədə onların özləri üçün vacib və əhəmiyyətlidir”.

***Gülyana***

# İnsanlar niyə ölür

***Bəzi ölkələr heç də asan irəliləyiş əldə etməyiblər. Xəstəliklər, epidemiyalar, gözlənilməz hadisələr insan həyatının daha tez bitməsinə səbəb olub.***

Biz ən çox "terror hücumları", müharibə və təbii fəlakətlərdən qorxurduq. Son illər ərzində isə ölkəmizin başına bütün bu fəlakətlər gəldi. Öncə pandemiya minlərlə can aldı, daha sonra erməni quldurlarının ölkəmizdə



etdiyi terrorlar, verdiyimiz Şəhidlər, ölən günahsız mülki əhali və yol nəqliyyat qəzaları.

Dünyada bir çox insan hələ də qarşısı alına bilən xəstəliklərdən vaxtından əvvəl ölür. Dünya əhalisi artdıqca insanlar orta hesabla daha uzun yaşayırlar. Ölümlərin 70 faizindən çoxu qeyri-infeksion və yavaş irəliləyən xroniki xəstəliklərlə bağlıdır.

Ürək-damar xəstəlikləri ən böyük ölüm səbəbi olaraq görülür. 2019-ci ildə 32,3 faizi, ümumi ölümlərin üçdə biri bu səbəbdəndir.

Xərçəng xəstəliyi ikinci yerdədir. Şəkərli diabet, tənəffüs yolu xəstəlikləri və digər qeyri-infeksion xəstəliklər nəticəsində ölümə səbəb olan səbəblər sırasındadır.

Ən təəccüblü faktlardan biri odur ki, hələ də qarşısı alına bilən xəstəliklərdən bu qədər insan ölür. 2017-ci ildə 1,6 milyon ölüm ishal səbəb olan xəstəliklərdən olub. İshal hələ də ölümün ilk 10 səbəbidir. Bəzi ölkələrdə bu, birinci yerdədir. Həmin il neonatal (doğuşdan sonrakı ilk dörd həftə) ölümlərinin sayı 1,8 milyon olub.

Bu ölümlər ölkədən ölkəyə çox dəyişir. Məsələn, Yaponiyada yeni doğulmuş uşaq ölümləri 1000-də 1-dən az olduğu halda, bəzi yoxsul ölkələrdə bu nisbət 20-də 1-ə qədər ola bilər.

Yol-nəqliyyat hadisələri nəticəsində ölənlərin sayı həm zəngin, həm də kasıb ölkələrdə yüksəkdir. 2017-ci ildə 1,2 milyon insan bu səbəbdən dünyasını dəyişib.

Son illərdə yüksək gəlirli ölkələrdə yol-nəqliyyat hadisələri nəticəsində ölüm halları xeyli azalsa da, dünya miqyası baxımından demək olar ki, eyni səviyyədə qalıb.

1988-ci ildən 2013-ci ilədək (25 il ərzində) Azərbaycanın avtomobil yollarında 66 min 981 yol qəza hadisəsi qeydə alınıb. Nəticədə 23 min 409 nəfər ölüb, 74 min 878 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

2019-cu ildə ölkənin avtomobil yollarında 1870 və ya 2018-ci illə müqayisədə 2,9 faiz çox yol-nəqliyyat hadisəsi baş vermiş, bu hadisələr nəticəsində zərər çəkən şəxslərin sayı 3,7 faiz artaraq 2523 nəfər olmuşdur. Onlardan 821-i həlak olmuş, 1702-si isə yaralanmışdır. Hadisələrin 44,9 faizi gündüz, 35,5 faizi gecə, 19,6 faizi isə toran vaxtı baş vermiş, 29,5 faizi həftənin şənbə və bazar günlərinə təsadüf







edib.

Yol-nəqliyyat hadisələrinin 87,5 faizi yaşayış məntəqələrində baş vermiş, bu hadisələr nəticəsində həlak olanların sayı 2018-ci ilə nisbətən 1,4 faiz artaraq 564 nəfər, yaralananların sayı 0,2 faiz artaraq 1631 nəfər olub.

2020-ci ildə ölkədə 1587 və ya 2019-cu illə müqayisədə 15,1 faiz az yol-nəqliyyat hadisəsi baş vermiş, bu hadisələr nəticəsində zərər çəkən şəxslərin sayı 16,5 faiz azalaraq 2106 nəfər olmuşdur. Onlardan 696-sı həlak olmuş, 1410-u isə yaralanmışdır. Hadisələrin 42,6 faizi gündüz, 35,0 faizi gecə, 22,4 faizi isə toran vaxtı baş vermiş, 28,9 faizi həftənin şənbə və bazar günlərinə təsadüf edib.

Yol-nəqliyyat hadisələrinin 88,5 faizi yaşayış məntəqələrində baş vermiş, bu hadisələr nəticəsində həlak olanların sayı 2019-cu illə müqayisədə 6,7 faiz azalaraq 526 nəfər, yaralananların sayı 19,4 faiz azalaraq 1315 nəfər olub.

2019-cu ildə dünyada intihar nəticəsin-



də ölənlərin sayı adam öldürmə qurbanlarının sayından 2 dəfə çox olduğu halda, İngiltərədə bu nisbət 16 dəfə yüksəkdir və 20-40 yaş arası kişi ölümlərinə görə birinci yerdədir.

Azərbaycanda indiyədək ümumilikdə 790 820 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 779 585 nəfər müalicə olunaraq sağalıb, 9 618 nəfər vəfat edib. 1 617 nəfər aktiv xəstə sayını təşkil edib.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 2 437, bu günə qədər isə ümumilikdə 6 635 319 test icra olunub.

SİA məsələ ilə bağlı araşdırma apararaq nəqliyyat eksperti, həkim, psixoloq və sosioloqların fikirlərini öyrənib.

**Nəqliyyat eksperti Elməddin Muradlı:** "Yol qəzalarında ölüm hallarının bir çox səbəbləri var. Əsas səbəblər nəqliyyat hadisələrinin ağırlıq dərəcəsinin artması ilə bağlıdır. Bu baxımdan köhnə avtomobilləri xüsusi qeyd etmək olar. Çünki köhnə avtomobillərin təhlükəsizlik elementləri ya zəif olur, ya da ümumiyyətlə olmur. Məsələn, konstruksiyada hava yastıqları nəzərdə tutulduğu halda işlək vəziyyətdə olmur. Qəza halında da hava yastıqları olmadığı üçün ölüm baş verir.



Sürücülərin, eyni zamanda yol hərəkəti qaydalarına ciddi yanaşmaması da bu səbəblərdəndir. Piyada keçidləri olduğu halda sərnişinlər bundan istifadə etməyərək məsuliyyətsizlik edirlər. Şüurlu insan özünü şüursuz dəmir parçasının önünə ataraq yol verməsini gözləyir. Piyadalar avtomobillərin əyləc məsafəsini nəzərə almır. Fizika qanunlarına əsasən də deyə bilərik ki, bəzən insan özü belə qaçdığı halda qəfil dayana bilmir. İnsanlar bunu dərk etmir və təhlükəli şəkildə hərəkət edirlər. Bu halların qarşısını almaq üçün təbliğat vasitəsilə nəzarət mexanizmini gücləndirərək yüksək nəticələr əldə etmək mümkündür".

**Həkim infeksionist Xatirə Əliyeva:** "Ölüm sayınım artmasına səbəb olan amillər baş verən qəzalar, intihar hadisələri və kütləvi şəkildə virusa yoluxma hallarıdır. Lakin unutmaq lazım deyil ki, dünyada ölümlə paralel doğum hadisəsi də olur. Doğumla ölüm arasında olan nisbət isə əhalinin təzələnməsi prosesidir.

Dünyada hər 10 ildən bir siyahıya alma prosesi gedir və bu proses nəticəsində dünyada yaşayan insanlar haqqında məlumat toplanaraq statistik cədvəllər tərtib olunur. Bu da BMT tərəfindən yerinə yetirilir. BMT-nin verdiyi məlumata əsasən hal-hazırda dünyada 7 milyarddan çox əhali yaşayır ki, bunlardan 5 milyardı Avrasiya qitəsindədir.



Son illərdə diqqəti cəlb edən ölüm səbəbi isə pandemiyadır. Əsrlər boyu müxtəlif növ pandemiyalar olmuş və bunlar kütləvi ölümlə nəticələnib. Son illərdə koronavirusdan ölənlərin sayı isə 1 milyon 256 min nəfər olub.

Ölü sayının artması səbəbindən biri də intihar hadisələridir. Dünyada hər 3 saniyədən bir intihar hadisəsi baş verir. Bu hadisələrin səbəbi isə ekonomik krizlər, müharibə travmaları və sosial vəziyyətin aşağı olmasıdır.

Yayılmasına görə intihar hadisələri 3 qrupa bölünür: psixoloji, bioloji və sosial amillər.

Psixoloji amillərə depressiyalar aiddir ki, qadınlar burada daha çox üstünlük təşkil edir. Yəni, kişi nisbəti azdır.

Bioloji amillərə genetikadan irəli gəlir ki, buna da bəzi hormonların çatışmazlığı səbəb olur.

Sosial amillərə isə ekonomik krizlər, erkən yaşda olan travmalar, ailə üzvlərinin itkisi və s. aiddir. Onkoloji xəstəliklər də buraya daxildir. Bəzi insanlar bu xəstəliyin travmasını qaldıra bilməyərək intihar edir.

Statistikanın verdiyi məlumata əsasən, ölüm sayının digər vacib səbəbi qəzalardır. Bu qəzalara avtomobil, təyyarə, qatar və gəmi qəzaları daxildir. Faizlə götürdükdə isə ölüm ən çox avtomobil qəzalarında baş verir".

**Psixoloq Vüsalə Əmiraslanova:** "Son dövlər yoluxma sayı xeyli azalıb və normal olaraq da ölüm sayında azalma müşahidə olunur.

İntiharlar daha çox yeniyetməlik yaşlarında olur. Ölüm sayında isə yanlız pandemiyanı günahlandırmaq olmaz. Qəzalar və intiharlar da buraya daxildir.



Qəzalar hədsiz çoxdur. Buna səbəb də insanların diqqətsiz və tələskən olmasıdır. Sükan arxasında telefondan istifadə etmək də qəzaların başlıca səbəbidir".

**Sosioloq Əhməd Qəşəmoğlu:** "Son zamanlar qohum, tanış arasında ölənlərin sayı çoxalıb. Bunun bir neçə səbəbi var.

Səbəbin biri odur ki, pandemiya dövründə həkimə getməyə qorxurlar və nəticədə də tibbi xidmətdən məhrum oldular.

Digər tərəfdən isə cəmiyyət günü-gündən mürəkkəbləşir. Belə bir cəmiyyətdə də insanların əsəbləri gərginləşərək sarsıntı yaranır. Bu da xəstəliklərin artmasına səbəb olur.



Digər tərəfdən də maddi problemlər insan ölümlərinə səbəb olur. Belə ki, insanlar imkansızlıqdan ucuz və keyfiyyətli qidalara üz tuturlar.

İntihar hər adamda yox, yalnız müəyyən qrup insanlarda olur. İntihara meyllilik deyilən bir anlayış var və şəxsin mühiti bu anlayışı bloklaya bilər. Bəzən isə mühit buna şərait yaradır. Bunun əsas səbəblərindən də biri odur ki, insan cəmiyyətdə özünü təsdiq edə, tapa, sabaha inamı olmayanda və adi bir hadisədən sarsılanda baş verir".

***Ayşən Vəli***

# Fəxrəddin Altun:
# "Türkiyə İslamofobiya ilə mübarizədə aparıcı rol oynayır"

"Avropanın müharibəyə görə ölkəsini tərk etmək məcburiyyətində qalan ukraynalılara qapılarını açdığı halda, suriyalılara, əfqanlara və ya Afrikadan olan qaçqınlara qarşı ayrı-seçkilik göstərməsi ziddiyyət olaraq qarşımızda dayanır. Bu ikili standartın əsas motivasiyasının islamafobiya və irqçilik olduğunu təəssüf hissi ilə müşahidə edirik". SİA xəbər verir ki, bu sözləri Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri Fəxrəddin Altun II Beynəlxalq Media və İslamofobiya Forumundakı çıxışında deyib.

Dünyanın müxtəlif ölkələrində islam düşmanlığının bütün qurbanları ilə həmrəy olduqlarını və bunu davam etdirəcəklərini ifadə edən F.Altun islamofobiyanın bu gün sistemli şəkildə təkrarlanan formaları ilə daim qarşılaşılan qlobal bir problem olduğunu və bu səbəbdən bu çoxölçülü problemlə mübarizədə yeni yol və üsullardan istifadənin vacib olduğunu söyləyib: "İslamofobiya sadəcə Qərb cəmiyyətlərinə xas problem deyil. Bu gün irqçiliyin bir versiyası kimi yaradılan islamofobiya qlobal problemə çevrilib. Biz dünyanın istər qərbində, istər şərqində, istər şimalında, istərsə də cənubunda islamofob hərəkətlərin və sözlərin şahidi oluruq".

İslamofobiyanın tarix boyu modernləşmə prosesi ilə fərqli ölçülər qazandığına və hətta Qərb xaricindəki müsəlman cəmiyyətlərində də müşahidə olunduğuna diqqət çəkən Altun bu problemin xüsusilə müstəmləkəçilik təcrübəsi yaşamış və ya radikal modernləşməyə məruz qalmış müsəlman ölkələrində belə sıx şəkildə yaşandığını qeyd edib.

F.Altun islamofobiyanın cənub-şərqi Asiyadan ABŞ-a qədər hər yerdə insanların həyatını təhlükə altına alan, ayrı-seçkiliyi yayan və Srebrenitsa hadisəsində olduğu kimi soyqırıma qədər gedə bilən qlobal təhlükə olmağa davam etdiyini, müsəlman icmalarının getdikcə daha çox nifrət nitqinə məruz qaldığını və islamofob hücumların sayında artım olduğunu xüsusilə vurğulayıb.



Birləşmiş Millətlər Təşkilatının İnsan Haqları Şurasının dərc etdiyi hesabatda müsəlmanlara qarşı nifrət cinayətlərinin xüsusilə sosial mediada böyük ölçüdə artdığını bildirən Fəxrəddin Altun xüsusilə qərbi Avropa ölkələrində islamofobik hərəkətlərin internet mühiti ilə yanaşı sosial həyatda da geniş vüsət aldığını, bəzi ölkələrdə isə qadınların dini inancları ilə bağlı geyimlərinə görə təhsil almalarının belə qadağan edildiyini ifadə edib: "Avropada artan anti-İslam etirazları nəticəsində müsəlman icmalarının hətta məscidlərə getməyə, müsəlman qadınların dini paltar geyinməkdən çəkindiyi bir prosesin yaşandığını görürük. İslam və müsəlman düşmanlığının təhqirdən ayrı-seçkiliyə, təzyiqdən fiziki zorakılığa və hücuma qədər bütün ölçüləri ilə hiss olunduğu bir təhlükə ilə qarşı-qarşıyayıq. İrqçi və ayrı-seçkilik xarakterli ritorika və hərəkətlərin bəzi Avropa siyasətçiləri tərəfindən dəstəklənməsi isə bu təhlükənin miqyasını daha da artırır".

Türkiyə rəsmisi bu münasibətin hətta Rusiya ilə Ukrayna arasında gedən müharibə şəraitində də özünü büruzə verdiyinə diqqət çəkib. Heç kimin yurdundan didərgin düşməsini və əzab çəkməsini qəbul etmədiklərini vurğulayan Altun Avropanın müharibə səbəbindən ölkəsini tərk etmək məcburiyyətində qalan ukraynalılara qapılarını açdığı halda, Suriyalılara, əfqanlara və ya Afrikadan gələn qaçqınlara qarşı ayrı-seçkilik nümayiş etdirməsinin ziddiyətli olduğunu deyib:

"Avropada bəzi siyasətçilərin ukraynalıları "müharibədən qaçanlar", suriyalıları isə "ölkəyə qeyri-qanuni yollarla girməyə çalışanlar" kimi müqayisə etməsi ibrət olaraq yadda qalacaq. Bu ikili münasibətə qərb mediası tərəfindən "Ukraynalılar ağdərili, xristian və avropalıdır, suriyalı deyil" kimi şərhlərlə haqq qazandırılmağa çalışılması da unudulmayacaq. Bu ikili standartın əsas motivasiyasının islamofobiya və irqçilik olduğunun təəssüflə şahidi oluruq".

"Şübhəsiz ki, Türkiyə qlobal səviyyədə islamofobiya ilə mübarizədə aparıcı rol oynayır. Cənab Prezidentimiz bütün qlobal problemlərdə olduğu kimi islamofobiya ilə mübarizəyə də rəhbərlik edir.

İslamofobiya ilə mübarizə apararkən, fərqliliklərin sərvət kimi göründüyü birgəyaşayış mədəniyyəti ilə dünyaya nümunə göstərməyə davam edəcəyik. Ancaq hər nə qədər Türkiyə bu mövzuda geniş araşdırmalar aparsa da, islamofobiya Türkiyənin təkbaşına kökünü kəsə biləcəyi bir şey deyil.

İslamofobiya və antiislamizmə qarşı beynəlxalq və çoxşaxəli mübarizə lazımdır. Bu mübarizə heç şübhəsiz qlobal təhlükə olan islamofobiyanın mərkəzi olan Avropadan başlamalı və bütün dünyaya yayılmalıdır. Necə ki, islamofobiya Avropada getdikcə daha çox institusionallaşır, İslamofobiya ilə mübarizədə də Avropanın üzərinə böyük məsuliyyət düşür", - deyə o bildirib.



## Milli Məclis hökumətin hesabatını təsdiq etdi

Milli Məclisin dünən keçirilən iclasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci ildə fəaliyyəti haqqında hesabatı müzakirəyə çıxarılıb. SİA-nın məlumatına görə, iclasda Baş nazir Əli Əsədov hesabatı təqdim edib.

Daha sonra Milli Məclisin komitə sədrləri və deputatlar hesabat barədə fikir və təkliflərini səsləndiriblər. Müzakirələrdən sonra hesabat səsverməyə qoyularaq təsdiq edilib.

## Baronessa Uddin: "Azərbaycan Qafqaz və Xəzər regionunda Böyük Britaniyanın etibarlı tərəfdaşıdır"



Azərbaycan ilə Böyük Britaniya arasındakı siyasi, iqtisadi, ticari, mədəni, təhsil və digər sahələrdə münasibətlər 30 ildir yüksələn xətlə davam edir. Bunu AZƏRTAC-a açıqlamasında Böyük Britaniyanın Lordlar Palatasının üzvü Baronessa Uddin söyləyib. "Otuz il ərzində ölkələrimiz arasındakı hərtərəfli münasibətlərin bundan sonra da davam edəcəyinə ümidvaram. Çünki Azərbaycan Qafqaz və Xəzər regionunda Böyük Britaniyanın etibarlı tərəfdaşıdır. Həmçinin Birləşmiş Krallıq Azərbaycanın Avropa məkanına və strukturlarına inteqrasiyasını dəstəkləyir".

Baroness Uddin vurğulayıb ki, Azərbaycan-Böyük Britaniya əlaqələrinin yüksək səviyyədə inkişafının nəticəsi 44 günlük müharibə dövründə də özünü aydın göstərdi. Krallıq Azərbaycana dəstəyini müharibə zamanı da nümayiş etdirdi.

# YAP-ın yeni konsepsiyası - yeni, davamlı qələbələrə doğru!

Yeni Azərbaycan Partiyasının VII Qurultayı ölkəmizin ictimai-siyasi həyatında böyük siyasi hadisə kimi tariximizə qızıl hərflərlə həkk olundu. Belə ki, Vətən müharibəsinin qələbəsi ruhunda keçirilən qurultayda Prezident İlham Əliyev cənabları tərəfindən müəyyən edilmiş əsas konsepsiyaların irəli sürülməsi ölkəmizin müharibədən sonrakı dövrdə daha sürətli inkişafını təmin edəcəyini təcəssüm etdirdi. Məhz bu baımdan, qeyd edə bilərik ki, YAP-ın VII qurultayı Azərbaycan torpaqlarının işğal altında qaldığı dövrün bitməsini şərtləndirən proses və hadisələrin obyektiv təhlili, həmçinin bu dövr ərzində əldə olunmuş bir çox uğur və nailiyyətlərimizin düzgün qiymətləndirilməsi baxımından da böyük əhəmiyyət kəsb edir.



*Abil Ağasəfov, YAP Qəbələ rayon təşkilatının sədri*

### Hər birimiz şahidik ki...

Təbii ki, bu müddət ərzində Azərbaycanın həyatında baş verən hadisələr arasında ən önəmlisi ərazi bütövlüyümüzün bərpa edilməsi, Vətən müharibəsində parlaq Qələbənin əldə olunmasıdır. Azərbaycan bu Qələbəsi ilə öz ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. Hər birimiz şahidik ki, dövlətimizin başçısı vurğulayırdı ki, Azərbaycan xalqı heç vaxt bu işğalla barışmayacaq və heç vaxt imkan verməyəcək ki, öz tarixi torpaqlarında ikinci erməni dövləti yaradılsın! Halbuki, uzun illər ərzində beynəlxalq vasitəçilər, demək olar, bütün aparıcı beynəlxalq təşkilatlar deyirdilər ki, münaqişənin hərbi yolla həlli yoxdur. Lakin Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev dəfələrlə vurğulamışdı ki, əgər bu məsələ sülh yolu ilə öz həllini tapmasa, biz bu məsələni hərbi yolla həll edəcəyik və belə də oldu. Əldə olunmuş tarixi Qələbə dövlətimizin başçısının güclü iradəsini, xalqımızın böyük əzmini və Azərbaycan dövlətinin gücünü bütün dünyaya nümayiş etdirdi. Ancaq bu möhtəşəm tarixi Zəfər gününə qədər ölkəmizdə bu Qələbəni şərtləndirən bir çox proseslər, o cümlədən zəruri hazırlıq işləri həyata keçirilmiş, mühüm hadisələr baş verib.

### Prezident İlham Əliyevin ”Biz birlikdə güclüyük” fikri dövlət siyasətinin əsas fəlsəfəsinə çevrilərək siyasi münasibətlərdə də öz əksini tapır

Həmçinin Yeni Azərbaycan Partiyasının VII qurultayından keçən 1 il ərzində ölkəmiz yeni siyasi islahatlar mərhələsinə qədəm qoydu. Etiraf olunmalıdır ki, son illər Azərbaycanda bütün sahələrdə əldə olunmuş uğur və nailiyyətlərdə bu islahatların böyük rolu var. Həmçinin, ötən il partiyaların böyük əksəriyyəti dövlət başçısının təşəbbüsünə müsbət cavab verərək, siyasi dialoqa qoşuldular. Əbəs deyil ki, Azərbaycanda siyasi fəaliyyət göstərən 6 partiya YAP sıralarına qatıldılar və bu, partiyanın yeganə ən güclü siyasi güc olduğunu sübuta yetirdi. Azərbaycan Prezidenti İlham Əliyevin ”Biz birlikdə güclüyük” fikri dövlət siyasətinin əsas fəlsəfəsinə çevrilərək siyasi münasibətlərdə də öz əksini tapır. Bu inteqrasiya siyasi partiyaların daha səmərəli və təsirli siyasi fəaliyyətinə gətirib çıxaracaq. Məhdud resurslara malik partiyaların kifayət qədər güclü siyasi partiyaya qoşulması ölkədə yeni siyasi mənzərənin yaranmasına səbəb olmaqla yanaşı, həmin partiyaların üzvləri üçün yeni imkanlar yaradacaq. Bununla da partiya üzvlərinin siyasi maraqlarının təminatı prosesi daha effektiv təşkil olunacaq. Eyni zamanda, siyasi qüvvələrin inteqrasiyası ölkənin siyasi partiyalar sisteminin daha effektiv fəaliyyətinə nail olmaq məqsədi daşıyır. Ölkədə partiyaların ləğv olunmadan sayının azalması siyasi proseslərə təsir etmək iqtidarında olan partiyalar üçün daha əlverişli şərait yaradılmasına müsbət təsir göstərəcək.

Siyasi partiyalar sistemində müşahidə olunan tendensiyalar YAP-ın gücündən və elektoratın potensialından xəbər verir. O cümlədən, YAP Cənubi Qafqazın ən nəhəng siyasi təşkilatı olaraq bir sıra mühüm faktorları özündə ehtiva etməkdədir. Prezident İlham Əliyev Azərbaycanda hər zaman gənclər siyasətinə xüsusi diqqət göstərib, nəticədə uğurlu bir gənclər siyasəti modeli yaranıb

### Prezident İlham Əliyevin başlatdığı yeni islahatlar dalğasında gənclər prosesin mərkəzindədirlər

Partiyamızın Sədri, Prezident İlham Əliyevin qurultayda çıxışı zamanı toxunduğu məqamlardan biri də ölkəmizdə həyata keçirilən gənclər siyasəti, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinin vacibliyi, Vətən müharibəsi zamanı Azərbaycan gənclərinin şücaəti, milli-mədəni köklərə bağlı gəncliyin formalaşmasının ölkəmiz üçün əhəmiyyətinin vacibliyi oldu. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi Ulu Öndər Heydər Əliyevin də daim diqqət göstərdiyi məqamlardan biri idi. Prezident İlham Əliyev də Azərbaycanda hər zaman gənclər siyasətinə xüsusi diqqət göstərib, nəticədə uğurlu bir gənclər siyasəti modeli yaranıb. Bu gün ölkəmizdə gənclər siyasəti sahəsində fəaliyyət göstərən bir sıra dövlət müəssisələri mövcuddur. Gənclər üçün kifayət qədər geniş imkanlar yaradılıb. Prezident İlham Əliyevin başlatdığı yeni islahatlar dalğasında gənclər prosesin mərkəzindədirlər. Bu gün gənclər kifayət qədər yüksək postlarda təmsil olunurlar. Yeri gəlmişkən qeyd etmək yerinə düşər ki, YAP-ın yeni formalaşan İdarə Heyətində də kifayət qədər gənc təmsil olunub. Vətən müharibəsi zamanı Azərbaycan gənclərinin xüsusi şücaətinə toxunan dövlətimizin başçısı bundan sonrakı dövrdə də vətənimizin daha da inkişafı üçün gənclərimizin üzərinə böyük yük düşdüyünü qeyd edib. Vətən müharibəsi zamanı şücaət göstərən gənclər məhz Prezident İlham Əliyevin hakimiyyəti illərində yetişən gənclik olub.

Artıq əminliklə vurğulaya bilərik ki, Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyev cənabları həmçinin Qarabağın bərpasında, Böyük Qayıdışın icrası zamanı partiyanın gənclərinin də fəal şəkildə iştirak etməli olduğunu xüsusilə vurğuladı. Kifayət qədər böyük gənclər ordusu toplayan Yeni Azərbaycan Partiyası bütün bu proseslərdə yaxından iştirak edəcək və üzərinə düşən missiyanı layiqincə yerinə yetirəcək.

Bütövlükdə isə bundan sonrakı dövrdə də partiya fəaliyyətini müasir dövrün tələblərinə uyğun quracaq, daha böyük uğurlar qazanacaq. Bizi qarşıda daha böyük qələbələr və zəfərlər gözləyir.

AKTUAL

## Rusiya-Ukrayna müharibəsi:
# amerikalı filosof-politoloqdan 12 bəndlik proqnoz

***Frensis Fukuyama: "Həm Rusiyanın, həm də Ukraynanın verdikləri böyük itkiləri hazırkı məqamda kompromis şəraitini qeyri-mümkün edir"***



**Stenford universitetinin amerikalı professoru, filosof, politoloq və siyasi iqtisadçı, verdiyi proqnozlarının əksər çoxluğu doğru çıxan Frensis Fukuyamanın American Purpose jurnalında Rusiya-Ukrayna müharibəsi və onun hansı nəticələrlə başa çatacağı haqqında ”Rusiya: məğlubiyyətə hazırlıq” sərlöhvləli məqaləsi çıxıb. SİA xəbər verir ki, məqalədə 12 bənd ayrılıb və professorun proqnozuna görə, məhz həmin bəndlər Rusiya-Ukrayna müharibəsinin nəticələri olacaq. Həmin bəndləri təqdim edirik:**

1. Rusiya Ukraynada tam məğlubiyyətə doğru hərəkət edir. Rusiyanın planları qeyri-kompetent olub və ukraynalılarının Rusiyayaya tərəf meyllənməyə köklənmələri və Rusiyanın hərbi müdaxiləsi başlayan kimi onların ordularının qaçacağı ehtimalları səhv nəticəyə əsaslanıb. Göründüyü kimi, Rusiya əsgərləri əlavə hərbi ləvazimatlar və qidalar payları yerinə Kiyevdəki qələbə paradında iştirak etmələri üçün özləri ilə hərbi parad formaları aparıblar. Hazırkı məqama qədər Putin bu əməliyyata öz silahlı qüvvələrinin böyük hissəsini göndərib - onun döyüşə göndərməsi üçün daha əhəmiyyətli rezerv gücləri qalmayıb. Rusiya ordusu üzləşdikləri nəhəng problemləri ilə müxtəlif Ukrayna şəhərlərində ilişib-qalıblar və onlar təchizat problemləri ilə yanaşı, ukraynalıların fasiləsiz hücumları ilə qarşılaşırlar.

2. Rusiyanın hərbi məğlubiyyəti ani və faciəvi olacaq. Bu məğlubiyyət müharibə nəticəsində əldən düşmə və aramlı son olmayacaq. Səhra şəraitindəki ordunu təchiz etmək, vəziyyətdən çıxarmaq mümkün olmadığı kimi, onun döyüş ruhu da buxarlanacaq. Ən uzağı isə bu, ölkənin şimalı üçün daha gerçək görünür, cənubda isə vəziyyət bir az yaxşıdır, ancaq şimal çökərsə, onlar da öz mövqelərini saxlaya bilməyəcəklər.

3. Müharibənin diplomatik şəraitdə başa çatması artıq mümkün deyil. Həm Rusiyanın, həm də Ukraynanın verdikləri böyük itkiləri hazırkı məqamda kompromis şəraitini qeyri-mümkün edir.

4. BMT-nin Təhlükəsizlik Şurası növbəti dəfə özünün əhəmiyyətsizliyini sübuta yetirdi. BMT-dəki yeganə səmərəli məsələ Baş assambleyadakı səsvermə oldu ki, bu da ”pis oğlanların” ifşa olunmasına kömək etdi.

5. Bayden administrasiyasının uçuşsuz zona elan etməsi və Polşa MiQ-lərinin göndərilməsinə yardım etməməsi ilə qəbul etdiyi qərarları doğru idi. O, qaynar vaxtı soyuq başını saxlamağı bacardı. Daha yaxşı olardı ki, ukraynalılar Rusiyanı öz gücləri ilə məğlub etsinlər ki, Moskva öz məğlubiyyətinin səbəblərini NATO-nun hücumu ilə əlaqələndirməsin və növbəti eskalasiyalara da yol açılmasın. Polşa MiQ-ləri isə çətin ki, Ukraynanın imkanlarına nə isə əlavə edə bilsin. MiQ-lərin yerinə ”Javelinlərin”, ”Stingerlərin”, ”Bayraktarların”, tibb ləvazimatlarının, rabitə avadanlıqlarının və kəşfiyyat mübadilələrinin çatdırılması daha əhəmiyyətlidir. Mən təklif edirəm ki, Ukrayna gücləri artıq NATO-nun bütün kəşfiyyat imkanlarına malikdir.

6. Ukraynanın ödədiyi qiymət əlbəttə ki, nəhəngdir. Ən böyük zərəri raketlər və artilleriyalar vururlar ki, onlara qarşı nə MiQ-lər, nə uçuşsuz zonalar heç nə edə bilmirlər. Bu qırğının qarşısını ala biləcək yeganə şey rus ordusunu quruda məğlub etməkdir.

7. Putin öz ordusunun məğlubiyyətini yaşaya bilməyəcək. O, ona görə dəstək alır ki, onu hakim avtokrat hesab edirlər. Bəs gücsüzlük kompetentsizliyində o daha nə təklif edə bilər?

8. Müdaxilə artıq bütü dünyanın populistlərinə nəhəng zərbə vurub, hansı ki, onlar hücuma qədər birağızdan Putinə dəstəklərini göstərirdilər. Onların arasında İtaliyadan Matteo Sallvini, Braziliyadan Jair Bolsonaru, Fransadan Erik Zemmur və Marin Le Pen, Macarıstandan Viktor Orban və əlbəttə ki, ABŞ-dan Donald Tramp var idi. Müharibə siyasəti onların avtoritarlığa meylliliklərini açığa çıxarmış oldu.

9. Rusiya-Ukrayna müharibəsi Çin üçün yaxşı dərs ola bilərdi. Rusiya kimi Çin də son onilliklərdə belə görünürdü ki, yüksək texnologiyalı silahlı qüvvələr yaradıb, ancaq onlarda hərbi təcrübə yoxdur. Rusiyanın Hərbi Hava Qüvvələrinin uğurusz işlərini çətin hava əməliyyatlarının idarə olunmasında təcrübəsi olmayan xalq-azadlıq ordusunun da təkrarlayacağı görünür. Ümid etmək olar ki, Çin Tayvanı ilhaq etmək qərarını verərkən Rusiya kimi öz gücünü səhv qiymətləndirməyəcək.

10. Ümid edəcəyik ki, Tayvan müharibəyə hazırlaşmaq vacibliyini dərk edib, necə ki, bunu ukraynalılar əvvəlcədən bildilər və hərbi xidmətə çağırışlarını təşkil etdilər. Adanın məğlub olmasına vaxtından əvvəl hazırlaşmağa isə ehtiyac yoxdur.

11. Türkiyə dronları besteller olacaqlar.

12. Rusiyanın məğlubiyyəti ”yeni azadlığın doğulmasını” mümkün edəcək və ”qlobal demokratiyanın enişi” ilə bağlı narahatlıqara son qoyacaq. 1989-cu ilin ruhu qəhrəman ukraynalıların sayəsində yenidən yaranacaq.

***Rövşən RƏSULOV***



# Ermənilər

## Cənubi Qafqaza gəlmə-köçürülüb gətirilmə etnosudur

XIX əsrin 20-30-cu illərindən başlayaraq Cənubi Qafqazın etnik xəritəsində yeni toplum erməni toplumu peyda oldu.1988-ci ildə azərbaycanlıların keçmiş İrəvan xanlığı ərazisindən-indiki Ermənistan adlanan bölgədən deportasiyası başa çatdı. Azərbaycan toponimləri tamamilə "erməniləşdirilir". Belə demək olar ki, ermənilər özlərinə saxta "tarix" yaradırlar. Tarixi həqiqət buna deməyə lazım bilir ki, ermənilər Cənubi Qafqaza gəlmə-köçürülüb gətirilmə etnosudur. Onların əcdadları hesab olunan tayfalar təqribən e.ə. I minilliyin ortalarında Fərat çayının yuxarılarında peyda olmuşlar. Onlar bu əraziyə Balkan yarımadasından köçüb gəlmişlər. Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra 1935-ci ilədək orada 190-dan çox azərbaycanlı yaşayış məntəqəsinin adı dəyişdirilmişdir. 1988-ci ilin avqust ayınadək indiki Ermənistan adlanan ərazisində 521 türkmənşəli yaşayış məskəninin adı dəyişdirilmişdir. Ermənistan AS-nin 1991-ci il 9 aprel fərmanı ilə azərbaycanlılara məxsus 90 məntəqənin adı dəyişdirilib.

Ümumiyyətlə, son dövrədək 667 toponim dəyişdirilmiş 1918-ci il mayın 29-da Azərbyacan Xalq Cumhuriyyəti Xalqın iradəsini nəzərə tutmadan, güclü dövlətlərin təzyiqi ilə öz ərazisində paytaxtı qədim Azərbaycan şəhəri İrəvan olmaqla erməni dövləti yaradılmasına razılıq verdi. Ermənilər və onların Moskvadakı himayəçiləri Azərbaycan dövlətinə qarşı gələcəkdə yeni ərazi iddiası sürmək üçün "zəmin" hazırladılar. Daha doğrusu bugünkü Ermənitan Azərbaycan Qarabağ münaqişəsinin "bünövrəsi" qoyuldu. Ikili standratlar dünyasında hər iki millətə münasibətdə ayrı seçkilik siyasəti qaldıqca isə 1 milyondan çox xalqımız öz yurdundan, torpağından qaçqınlığa düşməsinə biganəlik bəsləmədikdə, zəbt olunmuş ana torpağı uğrunda ədalətli, haqlı öz münasibətlərini davam etdirəcəklər! Artıq millətimiz 1918-ci ildə yol vermiş acı təcrübədən bilir ki, ana torpaqdan heç vaxt pay vermək olmaz. Vətən torpağından pay verən Vətənsiz qalar. Bu prinsipi nəzərə alan xalqımız Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşməklə 44 günlük Vətən müharibəsi ilə Vətənimizin bir parçası olan Qarabağımızı erməni işğalından azad edə bildi. Bu gün artıq Qarbağ münaqişəsi tarixə qovuşub, Azərbaycan ərazi bütövlüyünü bərpa edib. Bununla belə ermənilərin tarixin müxtəlif dövürlərində xalqımızın başına gətirdikləri faciələr, soyqırımıları unutmamalıyıq. Tarixi dərslərdən nəticə çıxarmalıyıq ki, ermənilərin növbəti dəfə qanlı cinayətlərinin qurbanı olmayaq....





### Mart hadisələri hansı səbəblərlə və məqsədlərlə baş verdi?

Mövcud fakt ondan ibarətdir ki, erməni daşnak qüvvələrindən ibarət xüsusi dəstələr 1918-ci ilin yanvarında etibarən Salyana və Lənkərana basqınlar edərək yolda müsəlman kəndlərini yandırır və talayırdılar. Astara topa tutularaq darmadağın edilib və kəndlər xarabaya çevrilirdi. Bakıda azərbaycanlılara qarşı soyqırımına başlamaq üçün bəhanə tapıldı. H.Z.Tağıyevin faciəli şəkildə həlak olmuş oğlu Məhəmmədin dəfn mərasimində iştirak edən "Dikaya diviziya" nın bir qrup əsgər və zabiti "Evelina" gəmisindən Lənkərana qayıtmaq istədikdə bolşeviklər tərəfindən tərksilah edilməsi əhalinin mübarizliyini son həddə çatdırdı. Əhali tələb edirdi ki, silahlar geri qaytarılsın. Abbas Kazımzadənin başçılıq etdiyi heyət qırğının qarşısını almaq üçün Şaumyan, Fialetov və Caparidze ilə danışıqlara başladı.Nümayəndə heyəti danışıqlardan dönərkən onların iki nəfəri qətlə yetirildi. Aprelin 1-də daşnaklarla "Atəşkəs müqaviləsi" bağlandı. Şərtə görə müsəlman qüvvələr hakimiyyəti Şaumyan Komitəsinə verdi. Məşədi Əzizbəyov Bakıya başçı təyin edilsə də, qorxu içərisində şəhəri tərk edən müsəlmanları sakitləşdirə bilmədi. Qafqaz cəbhəsindən türk qoşunları geri çəkilərkən Türkiyə erməniləri Qafqaz erməniləri ilə birləşdilər. Bir tərəfdən Andranikin, digər tərəfdən Dro, Keri, Muradın quldur dəstələri hərəkət edirdilər. Məhz bu vaxt Şaumyanın və Avakyanın fitnəkarlığı sayəsində Şamaxı hadisələri ilə əlaqədar yazılmış məktub Gəncə komendantının əlinə keçdi. Bu məktubda Şaumyan və Avakyanın qaniçən olduqları açıq-aydın görünürdü.

Mart hadisələrinin hansı səbəblərlə və məqsədlərlə baş verməsi bolşevik mətbuatında , siyasi liderlərin çıxışında eləcə də Şaumyanın 13 aprel BXKS-nin çağırılmış tarixi məruzəsində daha ətraflı şərh edilir. O, yazırdı ki, "biz döyüşlərdə parlaq nəticələr əldə etmişik. Düşmən tatamilə məhv edilmişdir". O, daşnaksutyun partiyasının köməkliyi ilə müsəlman "əksinqilabının" ləvğ edilməsindən, Bakını "Azərbaycan Xalqının paytaxtına çevirmək xülyasına düşən" müsavatçıların və digər müsəlman milli cəmiyyətlərinin dağılmasından sonra bolşeviklərin Bakıya tam sahib olduğunu bilirdi. Ermənilərin törətdikləri mart hadisələri Yalnız Bakı ilə qutarmadı. Erməni bandaları 1918-ci ilin aprelindən hərəkətə gələrək Şamaxıda, Quba-Xaçmazda, Lənkəranda, Hacıqabul və Salyanda cinayətlər və qırğınlar törətdilər. Daşnak Amiryan və Lalayanın başçılığı ilə Şamaxının bütün müsəlman əhalisi qılıncdan keçirildi və 7 min nəfərədək adam,o cümlədən 1653 qadın və 965 uşaq qırdılar.Erməni quldurları bu ərazinin 40-a yaxın kəndini darmadağın etdilər. Ərazidə yaşayanların ucdantutma qırılması, hamilə qadınları qarınlarının yırtılması, qızların vəhşicəsinə təhqir olunması, diri-diri yandırılması və bütün bunlar daşnaklar arasında "bəzi haqsızlıqlar" adlandırıldı. Fövqəladə İstintaq Komissiyasının sənədlərində qeyd edilir ki, təkcə yanvarda Bakıdan Mədrəsəyə 16 araba silah gətirilmişdir. Bakı Soveti və onun daşnak üzvləri matın ortalarında Şamaxıya 2 min erməni əsgəri, 60 araba silah göndərmişdilər.

Sənəddə göstərilir:"çoxlu uşaq və qadınla məsciddə gizlənmiş Axund Molla Cəfər öldürüldü. Erməni azğın əsgərləri məscidə soxularaq , Axundu tapıb onun gözlərini çıxartdılar, dilini, burnunu və qulaqlarını kəsdilər, üzünün və başının dəisini soydular və güllələdilər.Axundun evində və məsciddə olan bütün qadınları öldürdülər".

Erməni quldur dəstələrinin başçısı S.Şaumyan tərəfindən xüsusi səlahiyyət alan Amazasp Quba qəzasında 1918-ci ilin aprelində hücuma keçərək 122 müsəlman kəndini dağıtdırmış, yüzlərlə və ləzgi əhalisi qılıncdan keçirilmişdir.

### Xalqımıza qarşı düşünülmüş soyqırımı siyasətində erməni kilsəsi yaxından iştirak etmişdir

Lənkəranda 2 minlik erməni ordusunun həyasızlığı o dərəcəyə çatmışdır ki, burada olan gürcülər silaha sarılaraq soyğunçuluğun qarşısını almışdı. Bakıda və qəzalarda xalqımıza qarşı düşünülmüş soyqırımı siyasətində erməni kilsəsi yaxından iştirak etmişdir.Ermənilər Bakı qırğınından doymayaraq Lənkəranda, Quba-Xaçmazda ən əsası isə Ağsu və Şamaxıda dəhşətli qətllər törətdilər.

*Ardı Səh. 12*

# Ermənilər

## Cənubi Qafqaza gəlmə-köçürülüb gətirilmə etnosudur

Əvvəli Səh. 11

Yalnız Gəncədə Nəsib bəy Yusifbəylinin fitnəkarlığı nəticəsində 118 və 119 rus alayları tərk-silah olunaraq qovulduğu üçün, eləcə də, Şəmkirdə yerləşən rus ordusundan ələ keçirilən silahlar Gəncə əhalisinə paylandığına görə, ermənilərin azərbaycanlılara silahlı basqın etməyə gücü çatmadı. Bakı əhalisi də təcavüzə məruz qalmaqda idi. Erməni daşnak dəstələri 1918-ci ilin mart-aprel aylarında Bakıda, Muğanda, Qubada 50 mindən çox adamı qətlə yetirib, on minlərlə adamı torpağından didərgin salıblar.1918-ci ilin yaz payızında Zəngəzur qəzasında 115 kənd, yəni bütün azərbaycanlı kəndləri məhv edilib. 7729 nəfər azərbaycanlı,o cümlədən 3257 kişi, 2276 qadın isə 2196 uşaq vəhşicəsinə öldürülüb.

1919-cu ilin sonunadək buradan 60 min nəfərdən çox adam qovulub. 1917-ci ilin dekabrından 1918-ci ilin iyununadək erməni daşnak millətçilərinin qoşunları İrəvan quberniyasında 200 azərbaycanlı kəndini çapıb, talayıb və yandırıblar. 100 min nəfərədək azərbaycanlı Sürməli, İrəvan, Eçmiədzin (Üçmüədzin), Şərur qəzalarını tərk etməyə məcbur olub. 1919-cu ilin axırına qədər yalnız Təzə Bəyazid, Eçmiədzin və İrəvan qəzaları üzrə var yoxu talanan azərbaycanlıların sayı 200 min nəfərə çatmışdı. Onu da qeyd etmək lazımdır ki, Mehriyə bitişik ərazinin Ermənistana verilməsi sayəsində Naxcıvan bölgəsi süni şəkildə Azərbaycandan ayrı salınıb.

1948-1951-ci illərdə Stalin və Mikoyanın səyləri nəticəsində 100 mindən çox azərbaycanlı Qərbi Azərbaycandan (indiki Ermenistan adlanan) qovulub və bir çoxları dözməyərək həlak olub.Erməni millətçiləri bütün bunlarla kifayetlənməyib 1988-ci ildə Qərbi Azərbaycan torpağında yaşayanlara qarşı yeni genosid törətdilər. Erməni vəhşiləri 250 mindən çox azərbaycanlını öz tarixi torpaqlarından qovub didərgin salıb, var yoxdan çıxarıblar. 1988-ci ilin üç günü ərzində noyabrın 27-dən 29-dək Quqarakda, Spitakda,Stepanyanda 33 və ümumiyyətlə, 100 nəfərdən çox azərbaycanlı öldürülüb. Quqarak rayonunun Gözəldərə kəndində 21 azərbaycanlı, o cümlədən 6 qadın və 3 uşaq öldürülüb. 1918-ci il mart faciələri nəticəsində Şamaxı qəzasının 58 kəndi dağıdılıb, Quba qəzasının 122 kəndi, Qarabağın dağlıq hissəsində 155-dən çox Zəngəzur qəzasında 115, İrəvan quberniyasında 211, Qars vilayətində 92 kənd erməni vandalları tərəfindən yandırılıb.

Azərbaycanın tərkib hissəsi olan Qarabağın Ermənistana birləşdirilməsi məqsədilə 1988-ci ildən başlanan separatçılıq hərəkatı, işğalçılıq müharibəsi, etnik təmizləmə Azərbaycana qarşı cinayətkar siyasətin növbəti mərhələsidir. Hazırda Azərbaycan ərazisinin 20% erməni işğalı altındadır.Bir milyondan çox insan öz yurdundan didəgin salınıb, 50 mindən çox adam əlil olub, 877 şəhər, kənd qarət edilib, dağıdılıb. Xocalı soyqırımının XX ildönümü haqqında Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin sərəncamında qeyd edilir ki, Azərbaycan xalqının tarixinə 1992-ci il fevralın 25-dən 26-na keçən gece Xocalı faciəsi kimi daxil olmuşdur.Ermənistan silahlı qüvvələri bütün beynəlxalq hüquq normalarına zidd olaraq keçmiş Sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının şəxsi heyətinin iştirakı ilə yatan şəhərə hücum edərək azərbaycanlılara qarşı soyqırım aktını törətmişlər.Bir neçə saat ərzində 613 soydaşımız, o cümlədən 106 qadın, 63 uşaq və 70 qocaxüsusi qəddarlıqla qətlə yetirilmiş,meyitlər üzərində təhqiredici hərəkətə yol verilmişdir. Həmin kütləvi qırğın vaxtı 8 ailənin həyatına son qoyulmuş, 25 uşaq hər iki valideynindən,130 uşaq valideynlərinin birindən məhrum olmuş, 487 dinc Xocalıəhalisi ağır yaralanmış və 1275 nəfər girov götürülmüşdür..Girov götürülənlərdən 150 nəfərin taleyi indiyədək məlum deyil.



Əgər bizə 1918-ci ilin mart qırğını barədə danışılsaydı, çox güman ki, Xocalıda və digər bölgələrdə yeni faciələrlə üzləşməzdik. Bu tarixi yaddaşın zaman-zaman öldürülməsinin nəticəsidir.Bakı qırğınından sonra ermənilər dünyaya bəyansızcasına bildirdilər ki, Bakıda "çevriliş" olub. Uzun illər bolşeviklər və Sovet tarixçiləri bu hadisələri "Vətəndaş müharibəsi" kimi qələmə verməyə başladılar. Bu isə azərbaycanlılara qarşı vəhşi daşnak soyqırımı idi.



### Rus çarizmi tərəfindən xarici ölkələrdən ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi

Rusiya imperiyası Cənubi Qafqazda qüvvətlənmək və özünün gələcək işğalçılıq planlarını reallaşdırmaqdan ötəri imzalanmış Türkmənçay və Ədirnə müqavilələsinin şərtlərinə görə erməniləri tez bir vaxtda İran və Osmalı imperiyası ərazisindən bütöv şəkildə Şimali Azərbaycan ərazisinə köçürməyə başladı. Rusiya və İran arasında bağlanmış Türkmənçay müqaviləsinin 15-ci maddəsinə görə Rus çarizmin təkidi ilə İran ərazisində yaşayan ermənilər tam şəkildə Azərbaycan ərzisinə köçürülməsi rəsmiləşdirildi. 1829-cu il sentyabrın 2-də Osmanlı ilə Rusiya arasında imzalanmış Ədirnə sülhünün 13-cü maddəsinə görə Osmanlı torpaqlarında yaşayan ermənilərin hamılıqla Azərbaycan torpaqlarına köçürülməsi rəsmiləşdirildi. Ermənilərin bu ərazinin yerli əhalisi deyil, gəlmə olduqlarını başqa xristian qaynaqları ilə yanaşı erməni mənbələri də sübut edir.

Türkmənçay müqaviləsinin təsdiq edilməsinin (1828-ci il 20 mart) ertəsi günü Rus çarı Nikolay "Erməni vilayəti" yaradılması barədə fərman verdi. 1827-ci ilin mayında Rus generalı Paskeviç Xüsusi tələbnamə əsasında ermənilər içində nüfuza malik olan polkovnik Lazaryevi (Qararos Lazaryan) öz sərənacmına alınması ilə köçürülmənin hazırlıq işlərinə başlandı. O, 1827-ci il oktyabrın 19-da Təbrizə komenadant təyin edildi. Rus ordularının Təbrizə hücumu zamanı (13 oktyabr) Lazarevin çağırışından riqqətə gələn ermənilər yenə də xəyanət edərək Təbrizin darvazalarını rus ordularının üzünə açdılar. Köçürülən kasıb erməni ailələrinə kömək etmək üçün Rus dövlətinin xəzinəsindən 25 min rubl gümüş pul ayrılmışdı. 1828-ci il 26 may tarixli Gürcüstandakı baş qərargah rəisinə təqdim edilən raportda bildirilirdi: "Rusiyaya məxsus olan vilayətlərə xristianların köçürülməsi müvəffəqiyyətlə aparılır. Artıq Qarabağda 279, İrəvan vilayətində 948 ailə məskunlaşdırıldı. Polkovnik Lazarevin vədinə görə köçənlərin sayı 5 min ailəyə çatdırılmışdı. İ.Şopenin yazdığına görə İrandan köçürülən ermənilərdən yalnız 366 ailə (1715 nəfər) İrəvan şəhərinin özündə, 265 ailə (1110 nəfər) Naxçıvan şəhərinin özündə və 36 ailə (182 nəfər) isə Ordubad ərazisində məskunlaşdırıldı. Xaricdən köçürülən ermənilər İrəvan əyalətinin119 kəndində, Naxçıvan əyalətinin 61 kəndində, Ordubad dairəsinin 11 kəndində yerləşdirildi. Beləliklə, İrəvan əyalətində 4559 (23568 nəfər), Naxçıvan ətrafında 2137 (10652 nəfər), Ordubad dairəsində 250 (1340 nəfər) erməni ailəsi yerləşdirildi. Nəticədə qondarma "Erməni Vilayətinə" 35560 nəfərdən ibarət erməni ailəsi köçürüldü. Rusiya çarizmin xəzinəsindən 14000 manat qızıl, 400 manat gümüş pul xərcləmişdi. Məsələn, rus tədqiqatçısı N.Smirnov İrandan 90 min ermənin köçürülərək Azərbaycan əyalətində məskunlaşdığını yazır.

### Ermənilər Qafqaza gəlmə olduqlarını etiraf edirlər

1829-cu ilin avqustunda rus qoşunları Balkan ətrafından İstanbula hücuma keçdikdə II Sultan Mahmud Rusiya dövlətinə barışıq təklif etdi. Hər iki dövlət arasında 1829-cu il sentyabrın 2-də Ədirnə sülhü bağlanıldı. Hər iki dövlətin sərhədinə görə Axılkələk qalası və Axıska şəhəri Rusiyaya birləşdirildi. Ədirnə sülhünün 13-cü maddəsinə əsasən, Türkiyənin işğal edilmiş ərazilərindəki ermənilər 18 ay müddətində daşınan əmlakları ilə bərabər Rusiya təbəəliyinə keçmək hüququ verilmişdir. Bir qədər sonra M.Vladikin ermənilərin bu əraziyə köçürülməsi haqqında yazırdı: "İrəvan quberniyasında yaşayan ermənilərin 1828-1829-cu illər müharibəsindən sonra Türkiyədən bu ərazilərə köçürülmüşlər".

Hesabla Komissiyanın sayına görə, Osmanlı dövləti torpaqlarından 84 mindən çox erməni və yunan köçürüldüyü məlum olur. Lakin 1831-ci il aprelin 24-də qraf Paskeviçin adına verilmiş Əlahəzrətin buyuruğunda Türkiyə vilayətindən köçürülmüş xristianlar, yəni erməni və yunanlardan ibarət 14 mindən çox ailə (90 min nəfərə qədər) üçün 380min gümüş pul Rus dövlətindən ayrıldığı bildirildi. İ.Şopenin apardığı aiyahıyaalmanın nəticələrinə görə, 1828-1829-cu illər Rus-Türk müharibəsindən sonra "Erməni vilayəti" nə Türkiyədən 21666 nəfər (3682 ailə) erməni, 324 nəfər (67 ailə) yezidi kürd köçürülmüşdür. İ.Şopenin 20-ci ildən ibarət əlyazmasında siyahıyaalmanın nəticələri 1852-ci ildə çap edilən "Erməni Vilayətinin Rusiya imperiyasına birləşdirilməsi dövrünün tarixi abidəsi"ndə müharibədən sonra "Erməni Vilayəti"ndə mövcud olmuş 752 kənddən 521-i İrəvan əyalətinə, 179-u Naxçıvan əyalətinə, 52-si isə Ordubad dairəsinə aid idi. Siyahıyaalmanın nəticələrinə görə, köçürülməyədək vilayətdə 81749 nəfər müsəlmanın isə 25151 nəfər erməni qeydə alınmışdı. 1832-ci il siyahıyaalınmasına görə, İrəvan əyalətindəki kəndlərdən 463-də müsəlmanlar (Azərbaycan türkləri), 98-də ermənilər, 63 kənddə isə azərbaycanlılar və ermənilər qarışıq yaşayırdılar. Beləliklə, erməni köçkünlər boşaldılmış 126 azərbaycanlı kəndində, azərbaycanlıların yaşadığı 70 kənddə, 22 qarışıq və 47 erməni kəndində məskunlaşmışdı. N.Şavrov yazırdı ki, rəsmi köçürülən 124 min nəfər erməni ilə yanaşı, qeyri-rəsmi şəkildə köçənlərdə çox olmuşdur və ümumiyyətlə köçürülənlərin sayı 200 min nəfərdən xeyli artıqdır. N. Şavrov qeyd edir ki, XIX əsrin əvvəllərində Cənubi Qafqazda yaşayan 1.300.000 ermənin bir milyondan çoxu yerli əhali deyil, onları bura biz köçürüb gətirmişik...

**İ.ƏLİYEV**

# Avropa Parlamentinin

## Azərbaycana qarşı növbəti qərəzli addımı...

*Bunun adı riyakarlıq və ikiüzlülükdür*



**Martın 10-da Avropa Parlamenti tərəfindən qəbul olunan Qarabağda erməni mədəni irsinin məhv edilməsi ilə bağlı qətnamə Avropa dövlətlərinin keçmiş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində davam etmiş uzun illik diplomatik prosesdə ölkəmizə qarşı həyata keçirdiyi ikili standartın və riyakar siyasətin, həm 2020-ci ilin sentyabrında başlamış 44 günlük Vətən müharibəsində, həm də Azərbaycanın Zəfərindən sonra dövlətimizə qarşı nümayiş etdirdiyi ayrı-seçkiliyin daha bir təzahürüdür.**

Ümumiyyətlə, Avropa Parlamenti və bu kimi digər qurumlar dəfələrlə Azərbaycan üçün müxtəlif məsələlərdə ikili standartlardan çıxış edərək Azərbaycan xalqının nəzdində öz etimadlarını tamamilə itiriblər. Bu mənada onların hazırladıqları hesabat da bizim üçün boş kağız parçasından başqa bir şey deyil. Azərbaycanın işğal altında olmuş bölgələrində müşahidələr göstərir ki, indiyə qədər bütün tarixi, mədəni irsimizə qarşı böyük bir vandallıq törədilib. Bunu görməməzlikdən gəlib belə saxta bəyanatla çıxış etmək bu qurumların ikiüzlülüyün ən açıq forması olduğunu deyə bilərik. Bir də işğalçının milliyəti, yaxud kimliyi əsas deyil, işğalçı işğalçıdır və eyni münasibətə layiqdir.

Lakin birinə yanaşmada beynəlxalq hüququ əsas götürmək, digərinə yanaşmada bu hüququ çiynəmək, yumşaq desək, saxtakarlıqdan başqa bir şey deyil. Avropa Parlamentinin qəbul etdiyi qətnamə bunu bir daha ortaya qoydu və ikiliyanaşma siyasətinin dəyişmədiyini göstərdi.Qətnamədə iddia olunur ki, Azərbaycan Qarabağda "erməni mədəni irsini dağıdır". Hətta Azərbaycanın digər ərazilərində də eyni addımların atıldığı yalanı ortaya atılır.Sözsüz ki, Avropa Parlamentinin Azərbaycanın guya erməni abidələrini dağıtması ilə bağlı qətnaməsinin əsasında erməni lobbiçiliyi dayanır. Biz erməni lobbiçiliyi və diasporunun siyasi korrupsiya üsullarından istifadə edərək anti-azərbaycan, anti-türk fəaliyyətlərinin dəfələrlə şahidi olmuşuq. Bu, çox təəssüf ki, Avropa dəyərlərinə ciddi zərbə vurmaqla öz fəaliyyətində çox kobud səhvlərə yol verir.Sözügedən məsələ ilə bağlı Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumu çərçivəsində "Cənub Qafqazda inklüziv sülhün perspektivi" mövzusunda keçirilən panel müzakirələrində bildirib ki, Avropa Parlamentininin son qətnaməsinə lazımi cavab verilib.

### Azərbaycanın XİN başçısı: "Avropa Parlamentinin son qətnaməsi tamamilə əsassızdır"

"Avropa Parlamentininin son qətnaməsinə lazımi cavab verilib. Azərbaycan Parlamentində bu məsələyə ciddi reaksiya verib". Bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumu çərçivəsində "Cənub Qafqazda inklüziv sülhün perspektivi" mövzusunda keçirilən panel müzakirələrində deyib.

"Əlbəttə, həmin qətnamə tamamilə əsassızdır. Çünki Azərbaycan 30 il ərzində işğala məruz qalıb. UNESKO-nun məruzələrinə baxsaq, hər şeyi aydın görərik. Biz UNESKO-nun Qarabağa xüsusi missiya göndərməsi ilə bağlı dəfələrlə çağırış etmişik. Əgər qətnamədə deyilənlər doğru olsaydı, biz UNESKO-ya müraciət etməzdik. Bu gün diplomatlar, jurnalistlər gedib Qarabağı görə, dağıntılarla tanış ola bilərlər. Ermənistan işğal dövründə orada Azərbaycanın tarixi, mədəni abidələri məhv edib", - nazir vurğulayıb.

Qeyd olunub ki, Azərbaycan dövləti Qarabağda ayrı-ayrı tarixi-mədəni irsimizə qarşı törədilən vandallıqlar, vəhşiliklər haqqında faktlarla, sübutlarla dəfələrlə dünya ictimaiyyətinə, Avropa Parlamentinə və digər qurumlara müraciət etsə də bunlara heç bir reaksiya verilməyib. Və Avropa Parlamentinin Azərbaycanı Qarabağda guya Ermənistanın mədəni irsinə zərbə vurmaqda ittiham etməsi şübhəsiz ki, ölkəmizə qarşı növbəti qərəzli hücum dalğasının nəticəsidir.

Bütün bunlar isə Ermənistan tərəfindən beynəlxalq humanitar hüququn, o cümlədən 1954-cü il Haaqa Konvensiyasının və onun Protokollarının kobud şəkildə pozulmasıdır. Öz qətnaməsində UNESCO-ya dəfələrlə istinad edən, lakin qeyd olunan faktları inkar edən və Azərbaycanı UNESCO-nun missiyasını əngəlləməkdə ittiham edən Avropa Parlamentinin Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalının nəticələri, mədəni irsinə qarşı törədilən vandallıqlara dair ötən illər ərzində bir dəfə də olsun məsələ qaldırmaması olduqca düşündürücüdür. Avropa Parlamentinin hazırkı qətnaməsi nəinki beynəlxalq humanitar hüququn prinsiplərinə, eyni zamanda mədəni və dini abidələrin dağıdılmasına qarşı Avropa İttifaqının özünün qəbul etdiyi prinsiplərə də ziddir.

### Avropa Parlamenti artıq bir sıra faktları qəbul etməlidir

Qeyd edək ki, 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsi nəticəsində işğaldan azad edilən Qarabağın ümumi vəziyyəti bütün dünyaya bir daha sübut etdi ki, vəhşi qəbilələrin və tayfaların işğal etdikləri yerlərdə həyata keçirdikləri barbarlığı və vandalizmi haqqında sivil ölkə vətəndaşlarının tarix kitablarından haqqında oxuduğu vəhşilikdən daha artığını həyata keçirməyə hər zaman hazır olan Ermənistan adlı dövlət var. Və işğaldan sonrakı vəziyyət göstərdi ki, 30 ilə yaxın bir dövrdə Qarabağda Ermənistan tərəfindən məqsədli şəkildə urbisid, kultursid və ekosid həyata keçirilib. Nəticədə Qarabağın və Şərqi Zəngəzurun tarixi, maddi-mədəni irsi, mülki və sosial obyektləri, həmçinin bütün infrastrukturu dağıdılıb, mədəni sərvətləri talanıb, yeraltı və yerüstü resursları istismar olunub, bölgənin ekosistemi isə tamamilə pozulub. Əsası 1752-ci ildə Qarabağ xanlığının banisi Pənahəli xan tərəfindən qoyulmuş və sıldırım qayalar üzərində salınmış və 1992-ci il mayın 8-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilən Şuşa şəhəri 28 illik əsarətə və dağıntıya məruz qalıb. 2020-ci il noyabrın 8-də Azərbaycanın rəşadətli Ordusu 44 günlük Vətən Müharibəsi nəticəsində Şuşanın işğaldan azad olunması xəbərini Ali Baş Komandan İlham Əliyevdən eşidən xalqımız bu tarixi milli qürur, böyük coşqu və sevinc hissi ilə qeyd edib. Çünki Şuşanın işğaldan azad olunması Zəfər tariximizin ən şanlı səhifəsini təşkil edib. İndi Azərbaycan postmünaqişə dövründə geniş bərpa-quruculuq mərhələsinə qədəm qoyub. İşğaldan azad olunmuş ərazilərdəki bütün dini, mədəni abidələrə, o cümlədən xristian irsinə aid abidələrə dəymiş ziyanın müəyyən edilməsi, faktlaşdırılması və onların bərpası üzrə praktiki addımlar atılır.

### Riyakarlıq və ikiüzlülük Avropa Parlamentinin fəaliyyətinin təsdiqidir

Bu yerdə Avropa Parlamentinə bir faktı da bir daha xatırlatmaq lazımdır ki, cari ilin fevral ayının 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Fransanın Avropa İttifaqına sədrliyi qismində Prezident Emmanuel Makronun, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın iştirakı ilə videoformatda keçirilmiş görüşün nəticəsi olaraq UNESCO missiyasının Azərbaycana və Ermənistana göndərilməsinə dair razılıq ifadə edib. Bu, Ermənistan ərazisində Azərbaycan xalqına məxsus mədəni irsin vəziyyətinin öyrənilməsi zərurətinin təsdiqidir. Avropa Parlamenti isə nədənsə bu məsələyə ümumiyyətlə toxunmur. Və Avropa Parlamenti ermənilərə aid olduğunu iddia etdiyi mədəni abidələri qədim xristian irsinin və bəşəriyyətin ümumi irsinin bir hissəsi kimi təqdim edir. İşğal dövründə dağıdılmış və ciddi ziyan vurulmuş 67 məscidi, yerlə-yeksan edilmiş İslam mədəniyyəti abidələrini inkar edən düşüncə tərzi dini, irqi ayrı-seçkiliyi təşviq etməklə olduqca təhlükəli tendensiyalara rəvac verir. Ümumiyyətlə, qətnamədə Azərbaycanın mədəni irsi ifadəsinə heç bir yerdə rast gəlmək mümkün deyil - bunun adı riyakarlıq və ikiüzlülükdür. Bir sözlə, Avropa Parlamenti Azərbaycanla bağlı son qərəzli qətnaməni qəbul etməklə öz riyakarlığını, ikiüzlülüyünü bir daha nümayiş etdirdi. Ancaq Avropa Parlamenti bir həqiqəti anlamalıdır ki, bu günə kimim hazırladıqları qondarma qətnamələri Azərbaycan xalqının yüksək milli, mənəvi və mədəni dəyərlərinə kölgə sala bilməyəcək adi bir kağız parçasıdır.

**RƏFİQƏ HÜSEYNOVA**

ŞƏRH

# Xankəndi və İrəvanda hava həyəcanı siqnalı!

Son günlər Rusiya sülhməramlıları kontingentinin Qarabağda müvəqqəti yerləşdikləri ərazilərdən maraqdoğurucu xəbərlər gəlməkdədir. SİA-nın əldə etdiyi məlumatına görə, separatçı qalıqlarının qaldıqları ərazilərdəki ermənilər arasında söhbət gəzir ki, Xankəndi şəhərində hava həyəcanı siqnalı ilə bağlı yoxlama sirena veriləcək. Artıq bu xəbərdən panikaya düşən əhalinin əksər hissəsi Laçın dəhlizinə və oradan da Ermənistana axın etmək qərarını verib. Hətta digər iddialara görə, təkcə son bir həftə ərzində həmin əraziləri 2100 nəfərdən çox insan tərk edib. Onlar gedişlərini belə şərh edirlər ki, separatçı qurumun imkanlı adamları artıq öz ailə və yaxınlarını Xankəndidən Ermənistana yollayıblar. Məhz bu faktı əllərində əsas tutan separatçı rejim təsirindəki ermənilər xüsusilə hava həyəcanı siqnalı ilə bağlı məlumat alar-almaz özlərinin də təhlükəsizliklərini təmin etmək üüçün çıxış yolunu şəhərdən çıxmaqda görüblər.

### Hava həyəcanı siqnalının plan işi olması haqqında informasiya verilsə də...

Bununla bağlı vəziyyətin nəzarətdən çıxacağını görən qondarma qurumun "təhlükəsik xidməti" sözügedən məsələnin "şayiə" olduğunu bildirməklə Xankəndi və ətraf əraziləri tərk etmək qərarını verən insanların qarşısını almağa cəhd edirlər. Və bu məlumat yayılar-yailmaz artıq İrəvandan da bənzər xəbərlər gəldi.

Əldə etdiyimiz informasiyaya görə, İrəvanda hava həyəcanı siqnalı veriləcək. Ermənilər bunu "əhalinin hava həyəcanı halında reqlament yoxlanışı" kimi təqdim edirlər. Bildirilir ki, bununla bağlı İrəvanın rayonlarında konkret vaxtlar təyin edilib və icra orqanları məlumatlandırılıb. Lakin ən maraqlısı budur ki, hava həyəcanı siqnalının plan işi olması haqqında informasiya verilsə də, əhalinin panikaya düşməməmələri, suiqəsd teoriyalarına qapılmamaları, kütləvi miqrasiya qərarları verməmələri də xahiş olunur.




Maraqlısı da budur ki, İrəvanda bu xəbər rəsmi şəkildə yayılsa da, RSK-nın müvəqqəti yerləşdiyi ərazilərimizdəki separatçı qalıqlar Xankəndidə də eyni siqnalların verilməsi məlumatını təsdiq etmirlər. Artıq bu cür bir-birinə qarşı ziddiyyətlik yaradan məlumatlardan belə nəticə də hasil etmək olar ki, İrəvanla Xankəndi separatçıları arasında körpülər tamamilə yandırılmaq üzrədir. Ziddiyyətlər isə yalnız bununla başa çatmır.

### Ermənistanın müdafiə nazirliyi ilə icma rəhbərliklərinin məlumatları ziddiyyət təşkil edir

Hətta Ermənistanın özündə belə yerli icra orqanları ilə dövlət qurumları arasında ciddi fikir ayrılıqları yaranmağa başlayıb. Misal üçün, Qərbi Zəngəzur vilayətinin Qafan icmasının rəhbərliyi bildirib ki, Azərbaycan Silahlı Qüvvələri guya 3-5 mart tarixləri aralığında tutduqları mövqelərindən 1 kilometr irəliləyərək düşərgə qurublar. Bu barədə news.am-a "Nerkin Hand" kəndinin inzibati rəhbəri Xaçatur Baqdasaryan deyib, həmçinin bildirib ki, olayla bağlı Qafanın meri Gevork Parsyan da məlumatlıdır. "Azərbaycanın mövqelərindən kəndin qəbirstanlığı, içməli su mənbələri, həmçinin otlaq sahəsi görünür", deyə bildirən Parsyan müdafiə nazirliyinə də məlumat verdiklərini deyib. Müdafiə nazirliyi isə bu məlumatı təkzib edib və qarşı tərəflərin yalan danışdığını bildirib.

Beləliklə, son günlər maraqlı hadisələr yaşanır və bu hadisələrin istər Ermənistanda, istərsə də RSK-nın müvəqqəti yerləşdikləri ərazilərimizdə baş verməsi, xüsusilə də hava həyəcanı siqnalının yoxlanışdan keçirilməsi revanşçıların, separatçıların sonlarının çatması eyhamını vurmaqdadır.

**Rövşən RƏSULOV**

# 30 illik həsrətdən sonra Qarabağımız Novruz tonqalına qovuşdu

Əsrlərin sınağından çıxmış mənəvi dəyərlərimizi, adət-ənənələrimizi özündə yaşadan Novruz insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təməllər yaratmışdır. Tarix boyu zəhmət və halallıqla yaşayan xalqımız Novruzun gəlişini ruzi-bərəkət qapısının açılması kimi intizarla gözləmişdir. Novruzun milli taleyimizdəki yerini, bir xalq, millət və dövlət kimi milli dirçəlişimizdəki rolunu etnik özünütəşkil mexanizmi kimi dəyərləndirən ulu öndər Heydər Əliyev Novruz bayramını xalqımızı tarixən bütövləşdirən, onun varlığını birlik, böyüklük və yaşam gücü ilə qidalandıran fenomen kimi qymətləndirmişdir: ”Böyük mənəvi gücə malik olan Novruz bayramı ulu əcdadlarımızın bizə verdiyi ən gözəl yadigar olub, Azərbaycan xalqının milli ruhunu və yaddaşını, onun daxili aləmini bütün zənginliyi ilə yaşadır. Təbiətin oyanışının, varlığın yenidən canlanmasının müjdəsini verən Novruz bayramı ən qədim zamanlardan bəri həyat və məişətimizə daxil olmuş, insanlara aydın və işıqlı sabaha, xoşbəxt gələcəyə inam duyğusu bəxş etmişdir”.



***SEYFƏDDİN ƏLİYEV, YAP Masallı rayon təşkilatının sədri***

Ancaq mənfur erməni işğalçıları öz xəstə ruhlarına uyğun olaraq ötən 30 il ərzində bütün işğal olunmuş ərazilərimizdə olduğu kimi qədim Şuşa şəhərində də erməniləşdirmə, tarixi-mədəni təmizləmə siyasəti yürütməyə çalışırdılar. Ancaq 2020-ci ilin 8 noyabrındakı möhtəşəm qələbə ilə Azərbaycan xalqının tarixinə son üç əsrdə ilk dəfə Prezident, Ali Baş Komandan İlham Əliyevin ”Dəmir yumruq” siyasəti ilə tarixi Zəfər gününü həkk edən şanlı Azərbaycan Ordusu və Azərbaycan dövləti düşmənə öz yerini bir daha göstərdi.

Artıq alqımız ikinci ildir ki, Novruzu daha fərqli qeyd edir. Heç olmadığı kimi fərqli. Nəhayət, 30 ildən sonra Azərbaycan xalqının Novruz hədiyyəsi doğma Qarabağımızdır. Bu hədiyyəni, bu sonsuz sevinci isə Müzəffər Ali Baş Komandan, möhtərəm cənab Prezident İlham Əliyevin rəhbəri olduğu Azərbaycanın zəfər çalan yenilməz ordusu, dünya siyasi masasında öz arqumentləri ilə bütün oyunçulara haqq mövqeyimizi qəbul etdirməyi bacaran üstün Azərbaycan diplomatiyası və cənab Prezidentin ətrafında dəmir yumruq kimi birləşən mətin və həmrəy Azərbaycan xalqının özüdür.

## İlham Əliyev: "Hər il Novruz bayramı ərəfəsində deyirdik inşallah, gələn il Şuşada qeyd edək və bu gün gəldi"

### CIDIR DÜZÜNDƏ ALOVLANDIRILAN NOVRUZ TONQALI İLƏ DOĞMA QARABAĞA SAHİBLƏRİNİN BURADA OLDUĞUNU GÖSTƏRƏN BİR NUR, DÜŞMƏNƏ İSƏ GÖZDAĞI VERİLDİ

Belə ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev martın 16-da Şuşa şəhərinə növbəti tarixi səfəri Vətən müharibəsində şanlı Qələbəmizlə, 30 illik ayrılıqdan sonra doğma Qarabağımıza qovuşmağımızla, ədalətin zəfər çalması ilə əlamətdar idi. Həmişə olduğu kimi, bu dəfə də Azərbaycapn Prezidenti xalqına öz Novruz təbrikini dağlar qoynundakı Şuşadan - ecazkar Cıdır düzündən çatdırdı. Prezident İlham Əliyevin Birinci vetse-prezident Mehriban xanım Əliyeva və qızları Leyla xanım Əliyeva ilə birgə Azərbaycan xalqının ən əziz bayramı olan, xalqın birliyinin, həmrəyliyinin simvollarından biri Novruz bayramını Şuşada qeyd etməsi eyni zamanda bütün dünyaya qəti bir siyasi mesaj idi. Cıdır düzündə alovlandırılan Novruz tonqalı ilə doğma Qarabağa sahiblərinin burada olduğunu göstərən bir nur, düşmənə isə gözdağı verildi. Və bu tonqalın önündən Qalib Liderimiz, Prezident İlham Əliyev Azərbaycan xalqına müraciət etdi: ”Biz bu il Novruz bayramını Şuşada, Cıdır düzündə qeyd edirik. Bu, tarixi hadisədir. 2004-cü ildən başlayaraq, hər il mən Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edərkən deyirdim ki, biz öz doğma torpaqlarımıza qayıdacağıq. Deyirdim ki, biz ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik. Deyirdim ki, biz Novruz bayramını torpaqlarımız işğaldan azad olunandan sonra Qarabağda qeyd edəcəyik və bu gün gəldi. Bu gün biz Novruz bayramını qədim şəhərimizdə, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada qeyd edirik. Bu, tarixi hadisədir. Bu, böyük xoşbəxtlikdir. Allah Azərbaycan xalqının dualarını eşitdi. Hər il Novruz bayramı ərəfəsində hamımız yəqin ki, fikirləşirdik, bir-birimizə deyirdik, inşallah, gələn il Novruz bayramını Qarabağda qeyd edək, gələn il Novruz bayramını Şuşada qeyd edək və bu gün gəldi. 28 ildən sonra biz Şuşaya qayıtdıq. Novruz bayramını Cıdır düzündə qeyd edirik, tarixi ədaləti bərpa etmişik”.

### ”TONQALLARI YANDIRIN! BUNDAN SONRA MƏSKƏNİMİZ KÜLLİ - QARABAĞDIR!”

Müzəffər Ali Baş Komandan öz xalqına müraciətində bu böyük həqiqətə toxunaraq demişdir: ”Mən deyirdim ki, bizim ərazi bütövlüyümüz bərpa edilməlidir. Deyirdim ki, müharibə variantı heç vaxt istisna olunmur. Nəinki deyirdim, bütün bu illər ərzində bütün gücümüzü səfərbər edib ölkəmizi gücləndirirdik, güc toplayırdıq - həm beynəlxalq müstəvidə, həm ölkə daxilində, həm iqtisadi məsələlərin həllində, ölkəmizdə həmrəyliyin və birliyin möhkəmlənməsində, ordu quruculuğunda güc toplayırdıq. Bu gücü dəmir yumruq formasına gətirdik, düşmənin belini qırdıq və bu gün biz yeni reallıq yaratdıq”.

### ”MƏN DEMİŞƏM Kİ, ŞUŞA NƏİNKİ AZƏRBAYCANIN, DÜNYANIN ƏN GÖZƏL ŞƏHƏRLƏRİNDƏN BİRİNƏ ÇEVRİLƏCƏKDİR VƏ BUNA NAİL OLACAĞIQ, 100 FAİZ”

Bəli, bugün 30 il idi ki, bu tonqallara həsrət qalmış Qarabağ torpaylarında tonqallarımız yandırılır. Qalib Liderimiz Qələbə sevinclərinin Novruz şənliklərinə qovuşduğu müqəddəs bir məqamda bir daha dünyaya bəyan etdi ki. Qarabağın, onun tacı olan bu şəhərin əzəli sahibləri buraya əbədi qayıdıblar: ”Ermənilər Şuşanı erməni şəhəri kimi qələmə vermək istəyirlər. Halbuki, Şuşanın təməlini qoyan Pənahəli xan olub və həmişə burada azərbaycanlılar yaşayıb. Yaxşı, erməni şəhəri idisə, niyə əl gəzdirməmisiniz? Şuşa kimi mənzərəsi, təbiəti olan şəhəri belə günə salmaq vəhşilikdir. Azərbaycanlıların evlərini dağıdıblar və hesab edirdilər ki, işğal əbədi olacaq. Biz işğala son qoyduq. Mən demişəm ki, Şuşa nəinki Azərbaycanın, dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcəkdir və buna nail olacağıq, 100 faiz. Bura Azərbaycan torpağıdır, Qarabağ torpağıdır. Bundan sonra Azərbaycan xalqı burada əbədi yaşayacaq”.

### ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ALİ İDEYALARININ\ GERÇƏKLƏŞMƏSİNDƏ MEHRİBAN XANIM ƏLİYEVANIN XİDMƏTLƏRİ

Bu gün Heydər Əliyevin ali ideyalarının gerçəkləşməsində Azərbaycan Prezitdenti İlham Əliyevlə birgə, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKOnun xoşməramlı səfiri, Mehriban xanım Əliyeva da yaxından iştirak edir. Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin bütün dünyada təbliğində, qədim ənənələrimizin yenidən həyat qazanmasında və beynəlxalq ictimaiyyətə təqdim olunmasında Mehriban xanım Əliyevanın böyük xidmətləri vardır. Təsadüfi deyil ki, məhz Mehriban xanımın əməyi sayəsində Novruz bayramı çərşənbə günü dünyanın qeyri-maddi irsi kimi YUNESKO-nun siyahısına daxil edilmişdir. 2010-cu il 23 fevral tarixində isə martın 21-i BMT Baş Assambleyası tərəfindən Beynəlxalq Novruz Günü elan edilmişdir.

Bu gün möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycan dövləti tarixinin ən böyük yüksəliş dövrünü yaşayır. Aparılan məqsədyönlü daxili və xarici siyasət hesabına əldə edilmiş sosial-iqtisadi, mədəni nailiyyətlər xalqımızın bayram sevincini daha da artırır, bizləri gələcəyə ruhlandırır. Bizim hamımızın ümummilli, ümumxalq arzumuz vardır: ”Azərbaycanın dövlət müstəqilliyi daha da möhkəmlənsin, güclənsin. Xalqımız sülh və əmin-amanlıq şəraitində, xoşbəxt və firavan yaşasın!”



## Novruz bayramını qeyd etmək baharı qarşılamaq deməkdir

**Novruz yazın gəlişini simvolizə edən qədim xalq bayramıdır. Novruz bayramını qeyd etmək baharı qarşılamaq deməkdir. Bu bayramın tarixi çox qədimdir. Elmi araşdırmalar Novruz bayramının mənşəyini Zərdüşt peyğəmbərin yaşadığı dövrlə bağlayır, onun yaşının azı 3700, ən çoxu 5000 ilə bərabər edirlər.**

İslam xadimləri hər zaman bu bayrama dini libas geyindirməyə çalışsalar da, Novruzun İslamdan daha qədim tarixə malik olduğunu Firdovsi, Sədi, Hafiz, Nizami kimi maarifçilər də təsdiq ediblər.

Sovet dövründə Novruz bayramı qeyri-rəsmi qeyd olunurdu. Hökumət orqanları buna icazə vermirdi. Ancaq buna baxmayaraq, hər bir azərbaycanlı ailəsi əsrlik adət-ənənələr ilə bu bayramı qeyd edirdi.

Azərbaycan xalqı Novruzun gəlişini 4 həftə öncədən qeyd etməyə başlayır. Qədimdən bəri hər il günün bərabərləşməsindən əvvəl həftənin ikinci günləri Su, Od, Yel və Torpaq çərşənbələri qeyd olunur. Birinci çərşənbədə su və su mənbələri hərəkətə gəlir, ikinci çərşənbədə od, üçüncüdə yel, nəhayət sonuncu Torpaq çərşənbəsində təbiət oyanır.

Novruz bayramı adət-ənənələrlə, oyunlarla zəngindir. Qədim adətlərə misal olaraq ”Xıdır İlyas”ı, ”Kos-Kosa” əyləncə meydan oyununu və fal açmanı göstərmək olar.

Azərbaycan odlar diyarı olduğu üçün odla bağlı təmizlənmə, yenilənmə əlaməti olan zəngin ənənələri var. Axır çərşənbədə tonqallar qalanır, hər kəs ya bir tonqalın üstündən yeddi dəfə, ya da yeddi tonqalın hər birinin üstündən bir dəfə tullanmalıdır. Tullanarkən ”ağırlığım-uğurluğum odlara” və ya ”sarılığım sənə, qırmızılığın mənə” sözləri deyilir. Tonqalı heç vaxt su ilə söndürmək olmaz. Yalnız tonqal özü söndükdən sonra gənc qız və oğlanlar onun külünü yığıb, evdən kənar bir yerə atırlar. Bu isə uğursuzluqların, bədbəxtçiliklərin həmin ailədən uzaqlaşması deməkdir.

Su ilə saflaşma isə suyun real əlamətilə əlaqədardır. Su ilə əlaqədar olan ənənələr Azərbaycanda təzə illə bağlıdır. Təzə ildə axar suyun üstündən tullanmaqla keçən ilin günahlarını yumuş olursan. Bundan başqa bütün ailə üzvləri ötən ilin axırıncı gecəsi, yatmazdan əvvəl biri-birinin üstünə su çiləyirlər.

Bütün bu mərasimlər qədim şərq ənənələrinin davamıdır. Azərbaycanlılar süfrəsini zövqlə bəzəyirlər. Süfrədə ”s” hərfi ilə başlayan yeddi xörək, o cümlədən sumax, sirkə, süd, səməni və s. olmalıdır. Həmçinin, süfrəyə şam və güzgü də qoyulur. Şam od, işıq rəmzi, güzgü isə aydınlıq, şəffaflıq rəmzidir. Novruz bayramında göyərdilən səməni təbiətin canlanmasının, yazın gəlməsinin rəmzi hesab olunur.

Adətlərə görə Novruzun ilk günü yaz, ikinci günü yay, üçüncü günü payız və dördüncü günü qış hesab edilir. Həmin günlərdə hava şəraitinə əsasən ilin necə keçəcəyindən müəyyən edirmişlər.

Novruz bayramı Azərbaycanla yanaşı İranda, Türkmənistanda, Tacikistanda, Özbəkistanda, Pakistanda, Qazaxıstanda da xüsusi təntənə ilə qeyd olunur. Novruz eyni zamanda dünyanın London, Toronto, Los-Anceles kimi əksər yerlərində də bu xalqların nümayəndələri tərəfindən geniş şəkildə qeyd edilir. Novruz xalqımızın bütün varlıqlarını özündə cəmləşdirən bayramdır.

***Ləman Əlizadə***

# O sudan içməyək!

**Son vaxtlar maddi dəyərlər mənəvi dəyərləri üstələməkdədir. İnsanlarda depressiya, stress artıb. Hiyləgərlik üsulları xeyli rəngarəngləşib və təkmilləşib. Ümumi cəmiyyət maraqları şəxsi maraqlara qurban verilir. Əsas məqsəd çoxlu pul qazanmaq, vəzifə, şöhrət əldə etmək və özünü başqalarından üstün göstərmək üzərində fokuslanıb. Qanunu, qaydanı pozmaq üstünlük sayılır, başqalarından fərqlənmək (bu hətta pis şeylərdə olsa belə) azarı gənclər arasında geniş yayılır.**

Hətta gərgin münasibətlər ətraf mühitdən ailə daxilinə keçib və məhz bu səbəbdən münaqişələrin, boşanmaların və ailədaxili qətllərin sayı artır. Böyük sözünü vecinə alan da yoxdur. Bir çox gənclər açıqca deyirlər ki, biz hər şeyi bilirik və doğru edirik, siz yaşlı nəsil heç nə bilmirsiniz və səhv edirsiniz. Lakin reallıq bütün dövrlərdə və bütün ölkələrdə olduğu kimi tam əksini göstərir.

Heç kim etiraz etməz ki, son vaxtlaradək milli-mənəvi dəyərlərimiz həyatımızın əsas sütunu idi. El arasında yazılmamış qanunlar adlandırılan ictimai davranış kodeksləri var idi və buna əməl olunurdu.

İnsanlar bir-biri ilə ədəb-ərkanla davranır, böyük-kiçik, qadın-kişi yeri bilinirdi. İctimai yerlərdə şit hərəkətlər, ucadan mahnı oxutmaq, dar keçidlərdə yolu kəsərək söhbətləşmək və ya zarafatyana süpürləşmək, ucadan danışmaq, hara gəldi zibil atmaq, avtobusda sürücü ilə söyüşmək... yəqin ki, heç kimin ağlına belə gəlmirdi.

Bəs, sonra nə baş verdi ki, situasiya 180 dərəcə dəyişdi? 21-ci əsrə keçid sanki başqa bir dünyanı gətirdi. Pul və vəzifə uğrunda amansızcasına mübarizə mənəvi dəyərləri tədricən arxa plana keçirdi.

Təhsilə, elmə, mədəniyyətə marağı əyləncənin əvəz etməsi, ağsaqqal-qarasaqqal münasibətlərinin çərçivədən çıxması, TV-lərdən şou, serial və kriminal verilişlərlə kütləvi əxlaqsızlaşma, psixotron terror, davamlı reklam təcavüzü ilə zövqlərin, xüsusiyyətlərin, davranışların, dəbin hansısa şübhəli xarici mərkəzlərdən formalaşdırılması... siyahı təəssüf ki, xeyli uzundur. Bu psixotron terror mənəvi zombiləşmənin əsasını qoymaqdadır...

Bu tendensiya real həyatdan indi də virtual həyata keçib. Mediada təhqir, böhtan, şantaj yalan xəbər yayıb çoxlu izləyici əldə etmək və pul qazanmaq daha ayıb sayılmır. İnternet saytlarda biabırçılıq baş alıb gedir. Televiziyalar daha çox mənfi şeyləri təbliğ edir, maddi dəyərlərin mənəvi dəyərlərdən üstün olduğunu "göstərirlər" (burada əlbəttə dövlət və ictimai televiziya kanallarını istisna etmək lazımdır, onlar hələ də televiziyanın əsas funksiyasını unutmayıblar).




Sosial şəbəkələrdə adamlar normal müzakirə aparmaq əvəzinə bir-birini "qırır". Heç kimin sözü heç kimə xoş gəlmir. Heç kim heç kimin "kitabını oxumur". Həqiqəti deyəni, nöqsanlarımızı üzə çıxaranı, düzəltməyə çalışanları, mənəvi dəyərləri müdafiə edənləri "geridə qalmış" adlandırır və az qalırlar linç edələr.

Başqa cəmiyyətlərdə olduğu kimi bizim cəmiyyətdə də yad qüvvələr tərəfindən məşhur "Overton pəncərəsi" tətbiq olunur, dəyərlərin tədricən dəyişilməsi prosesi aparılır. Bu "Overton pəncərəsi" haqda oxuyun, prosesin necə aparıldığını görəcəksiniz, hər şeyə sizə aydın olacaq. Cəmiyyət dəyərlərin kəskin və sürətli dəyişməsinə razı olmadığı üçün, burada "diri qurbağını qaynar suda necə bişirmək" təcrübəsi tətbiq olunur.

Bəli bu gün, yad dəyərlər, xüsusi nəzəriyyələr və peşəkar təcrübələrlə hər şey tədricən dəyişdirilir. Bunun nəticəsində, indi müsbət şeylər mənfi sayılır, mənfi şeylər müsbət. Mənfilər çoxaldıqca müsbətlər azalır. Azlıq çoxluğa tabe olur. Burada qədim bir hind pritçasını yada salmağa dəyər.

Rəvayətə görə, qədimdə bir şəhərin ətrafındakı meşəlikdə tək yaşayan, ibadət və elmlə məşğul olan bir zahid müdrik varmış. Dünyanın qızıl dövrü imiş. Hər yanda əmin-amanlıq bolluq və mehribanlıq. Bir gün bu müdrik dağdan enir şəhərə və adamlara deyir ki, tezliklə hər şey dəyişəcək, tam tərsinə olacaq. Bunun əlamətini onda biləcəksiniz ki, su dadını dəyişəcək bir qədər acı dadmağa başlayacaq. İnsanlar ona inanmırlar. Yalnız bir gənc inanır və gedib çay kənarında özünə koma tikir, yeri qazıb anbar düzəldir və oraya su daşıyıb toplayır.

Vaxt keçir, vədə yetişir, suyun dadı tədricən dəyişməyə başlayır. Gənc dərhal köçür ordakı komasına və ancaq əvvəldən yığdığı sudan içməyə başlayır. Hər dəfə şəhərə düşdükdə baxır ki, adamlar dəyişib, əvvəl ayıb sayılan şeylər indi normal sayılır, əvvəl yaxşı sayılan işlər indi pis sayılır. Bu onunla bununla mübahisə etməkdən yorulur, heç kimə izah edə bilmir ki, elə deyil belədir. Hər dəfə bunu döyüb qovurlar ki, sən bizdən ağıllısanmı. Gedir o müdrikin yanına ki, mən neyləyim. Müdrik deyir ki, 3 yolun var, ya axıradək mübarizə aparacaqsan, amma səni fiziki olaraq öldürə bilərlər, ya onların suyundan içib onlar kimi olacaqsan, bu halda mənəvi cəhətdən öləcəksən, ya da cəmiyyəti tərk edib mənim kimi uca dağların başında tək yaşayacaqsan. Bu gənc çox düşünür, axırda 3-cü yolu seçir. Gedir müdrikin yanına və ona xidmət etməklə ömrünün sonunadək orda yaşayır.

İndi həmin "su" bəzi xarici mərkəzlər tərəfindən ölkəmizə, cəmiyyətimizə təklif olunur, çoxumuz isə bu suyun tərkibi haqda məlumatlı deyilik, elə sudur deyib içirik. Lakin indi cəmiyyətimizdə hələ də o sudan içməyənlər var, onları o sudan içməyə məcbur etmək, ya da onun qaçıb dağ başına (xaricə) getməsinə səbəb olmaq lazım deyi. Kefli isgəndərləri vurub öldürməyək. Mirzə cəlilləri, haqverdiyevləri, sabirləri, nərimanovları, hacıbəyovları, cəfərləri, zərdabiləri... xalqın uğrunda çıraq kimi yanmış mütəfəkkirləri, mənfi adətlərə, cəhalətə qarşı böyük bir qüvvənin qarşısında qorxmadan mübarizə aparanları da belə etmişdik. Hərəsini bir cür çərlədib öldürdük. Lakin onların davamçıları dayanmadı, ideyaları, amalları ölmədi, yaşadı və xalqımızı da yaşatdı.

İndiki qloballaşma dövründə milli-mənəvi dəyərlərimizi daha çox qorumalıyıq, çünki indiyədək heç vaxt olmadığı qədər güclü təzyiq və terror altındadır. Elmə-təhsilə daha çox fikir verib irəli getməliyik. Sağlam düşüncəli, savadlı uşaqlar yetişdirib tərbiyə etməli, xalqımızı, ölkəmizi dünyanın inkişaf etmiş ölkəsinə çevirəcək insanları qorumalı, küçə müğənnilərini və yarıçılpaq modelləri dinləmək əvəzinə alimləri, ziyalıları dinləməliyik. Yalnız bu yolla bir millət kimi yaşaya və inkişaf edə bilərik. Azərbaycançılıq ideologiya və milli-mənəvi dəyərlərə söykənməklə. Əminəm ki belə də olacaq. Azərbaycan dünyaya Günəş kimi doğacaq.

***Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi" istiqaməti çərçivəsində hazırlanıb.*



## "Ermənistan tərəfi heç nəyə nail ola bilməyəcək"

**"Ağdam istiqamətində ərazilərimizin Ermənistan tərəfindən bir neçə dəfə atəşə tutulması Ermənistanın hərbi təxribatının növbəti göstəricisidir". Bu sözləri SİA-ya açıqlamasında politoloq İlyas Hüseynov bildirib.**

Onun sözlərinə görə, Fransada prezident seçkiləri yaxınlaşır. Ona görə də bu xüsusda Paşinyan Makrona minnətdarlığını bildirmək və dəstək olmaq məqsədilə Fransaya səfər edib: "Bu səfərin həyata keçirilməsi ilə paralel olaraq ərazilərimizin atəşə tutulması arasında bir uyğunluq var. Cənab Prezident İlham Əliyev Türkiyədə səfərdədir. Bunu fürsət kimi istifadə edən erməni tərəfi bölgədə gərginliyin artırılmasına çalışır. Rusiya və Ukrayna arasında gedən müharibəni də özü üçün fürsət kimi dəyərləndirirlər. Ermənistan bölgədə müvəqqəti olaraq yerləşdirilmiş Rusiya kontingetini davamlı olaraq diskreditasiya edərək, onların legitimliyini aşağı salır. Bölgədə suni gərginlik yaradaraq müxtəlif formada manipulyasiya etməyə cəhd göstərən Ermənistan tərəfi bununla heçnəyə nail olmayacaq. Çünki Azərbaycanın qətiyyətli addımları və adekvat tədbirləri nəticəsində bütün hərbi və siyasi təxribatların qarşısı uğurla alınır. Ermənistan tərəfinin əsas məqsədi yenidən Qarabağ problematikasını danışıqlar masasına daşımaq və bununla bağlı müzakirələri davam etdirməkdir. Bu danışıqların ermitasiya prosesini biz uzun müddət görmüşük və heç bir məntiqi nəticəsi olmayıb".

## "Bakcell"in yeni konsept mağazası Bərdədə




Bərdə şəhərində "Bakcell"in yeni konsept mağazası açılıb. Müştərilərin rahatlığını təmin etmək məqsədilə yeni mağaza tam olaraq müştəri yönümlü yanaşma üzərində qurulub. Bərdə şəhəri, Ü.Hacıbəyli küçəsində (Hərbi Polis idarəsi ilə üzbəüz) yerləşən mağaza özündə müştəri xidməti və satış funksiyasını birləşdirir. Burada Bərdə sakinlərinə şirkətin məhsul və xidmətlərinin tam çeşidi ilə yanaşı, mobil nömrələr və aksessuarlar təklif edilir.

Qeyd edək ki, bu, "Bakcell"in Azərbaycanın regionlarında açılmış ikinci konsept mağazasıdır. Şirkət bu ilin sonunadək bir neçə yeni mağazanın açılışını planlaşdırıb. 2021-ci ildə Bakcell şəbəkəsi növbəti dəfə Ookla® tərəfindən "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adına layiq görülüb. Bu gün Bakcell şəbəkəsi 9 minə yaxın baza stansiya sayəsində Azərbaycan əhalisinin 99.9%-ni, ölkə ərazisinin isə 92.6%-ni əhatə edir.

Səs
16 mart
2022-ci il

# Messi reytinqini itirə-itirə gedir...




Fransanın PSJ futbol klubunun argentinalı ulduz futbolçusu Lionel Messi "Qızıl top" mükafatına iddialı olan futbolçuların TOP-10 reytinqində yerini itirib.

Belə ki, goal.com-un versiyasına əsasən hazırlanan sihahıda argentinalı hücumçu 20-ci pilləyə düşüb. Buna onun komandasının ötən həftə Çempionlar Liqasının 1/8 finalında "Real"a uduzaraq mübarizəni dayandırması səbəb olub. Bir çox futbol mütəxəssisləri artıq bu qənaətdədirlər ki, argentinalı futbol ulduzu "Barselona"nı tərk edəndən sonra koryerasında geriləmə yaşayır və bu da ilk növbədə L.Messinin beynəlxalq idman reytinqinə ciddi zərbə vurur.

"Mançester Yunayted"in hücumçusu Kriştiano Ronaldo siyahıda 16-cıdır. Reytinqdə ilk üç yeri isə müvafiq olaraq Robert Levandovski ("Bavariya"), Kərim Benzema ("Real") və Məhəmməd Salah ("Liverpul") tutur.

# Novruz tətilində şagirdlər nə etməlidir?

**"Tətil müddətində təbii ki, müəllimlər uşaqlara müəyyən tapşırıqlar verirlər. Bu başa düşülən haldır. Lakin bütövlükdə söhbət tətildən, şagirdlərin istirahətinin təmin olunmasından gedirsə bu zaman ciddi şəkildə onları yükləmək hesab edirəm ki, yanlışdır". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti İlqar Orucov bildirib.**

Onun sözlərinə görə, müəllimlər şagirdlərə müəyyən tapşırıqlar verə bilər: "Müəyyən istiqamətlər, yönləndirici tapşırıqlar verə bilərlər, amma bütün bu tapşırıqlar şagirdləri yükləməməlidir. Şagirdlər tətil müddətində daha çox istirahətə, asudə vaxtın səmərəli təşkilinə zaman ayırmalıdır. Uşaqlar tətil zamanı daha çox istirahət etməli və öz uşaqlıqlarını yaşamalıdırlar. Onlar evdə olduqları müddətdə bədii ədəbiyyat oxumalı, hər hansı yardımçı tədris vasitələrindən istifadə etməlidirlər. Bütün bunları nəzərə aldıqda uşaqların ifrat yüklənməsi yolverilməzdir".

*Səbinə Hüseynli*



# Heyvanları ovlayanlara hansı cəza tətbiq edilir?



"Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsi və digər aidiyyatı dövlət qurumlarının əməkdaşları tərəfindən respublika ərazisində qanunsuz ovun qarşısının alınması məqsədilə mütəmadi olaraq nəzarət profilaktiki tədbirlər həyata keçirilir". Bu sözləri SİA-ya açıqlamasında Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin əməkdaşı Nurlan Əliyev deyib. Onun sözlərinə görə, tədbirlər zamanı ov qaydalarını, eləcə də mülki silahın daşınması və saxlanılması qaydalarını pozmuş həmin şəxslər İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinə əsasən inzibati məsuliyyətə cəlb edilirlər: "Qeyd edək ki, lazımi icazə olmadan və ya qadağan edilmiş yerlərdə, yaxud qadağan edilmiş vaxtda, qadağan edilmiş alət və üsullarla ovetmə xeyli miqdarda ziyan vurduqda törədildikdə isə şəxs və ya şəxslər barədə Cinayət Məcəlləsinin 258-ci maddəsinə əsasən cinayət işi açılır".

*Arzu Qurbanzadə*

# "Nar" Novruz bayramını azad edilmiş ərazilərdə əsgərlərlə qeyd etdi

"Nar" Novruz bayramı ərəfəsində Azərbaycan Ordusuna mənəvi dəstək məqsədilə işğaldan azad edilmiş ərazilərdə yerləşən hərbi hissələrdən birini ziyarət edib. Müdafiə Nazirliyinin dəstəyi ilə mobil operator qalib Azərbaycan Ordusunun əsgərləri ilə görüşüb və Novruz çərşənbəsini onlarla birgə qeyd edib. "Nar" azad edilmiş ərazilərdə yerləşən bir neçə hərbi hissəyə müxtəlif hədiyyələr təqdim edib. Məqsəd Vətən keşiyində duran Ordumuzun əsgərlərinə olan ehtiramı bildirmək və onlara mənəvi dəstək göstərməkdir.

"Nar"ın mətbuat xidmətinin rəhbəri Əziz Axundovun sözlərinə görə, "Nar" vətənpərvərlik mövzusuna xüsusi həssas yanaşır: "Novruz bayramını Milli Ordunun əsgərləri ilə birlikdə qeyd etmək artıq "Nar" üçün ənənəyə çevrilib. Çox qüruruluyuq ki, bu əziz bayramı işğaldan azad edilmiş ərazilərimizdə qeyd edə bilirik. Bu qüruru bizə bəxş edən Milli Orduya mənəvi dəstək olmağı özümüzə borc bilirik".

Bayram tədbiri tonqallar ətrafında, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin konsert proqramı ilə davam edib. Qeyd edək ki, əsgərlərlə görüşdən hazırlanan videoya aşağıdakı keçidə daxil olmaqla baxmaq olar: https://www.youtube.com/watch?v=uF7Cmzx7k5E

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 91%-ni əhatə edir və 8800-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.




## ELAN

Şərur MTK tərəfindən Zamanov Teymur Xanverdi oğlunun adına verilmiş mənzlin müqaviləsi və ödəniş qəbzləri itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**